

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Böyük Qayıdış: AZAD LAÇIN!




8


# SƏS

№ 223 (6906)

6 dekabr 2023-cü il.
Qiyməti 60 qəpik


# Qarabağda və Şərqi Zəngəzurda yol infrastrukturu



2

Dövlət başçısının Sərəncamına əsasən, Suqovuşan-Sərsəng su anbarı - Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulmasına 17,0 (on yeddi) milyon manat ayrılıb

# "The Washington Post" şər yuvasına çevrilir




ABŞ özünün qara işlərinə jurnalistlərini də şərik edir

6

### Prezident Administrasiyasında Türkiyənin Ədalət və İnkişaf Partiyasının nümayəndə heyəti ilə görüş keçirilib



2

### "UNESCO-dakı idarəedici orqanlar Fransanın təsiri altındadır"

UNESCO

10

### Qarabağ bitkiləri dərman sənayesinə nə verə bilər?



15

## Sosial şəbəkələrdə tanışlıq evlilik ənənələrinə zərər vurur?



11

## Bu il qəbul imtahanları nə vaxt baş tutacaq, yeniliklər nə olacaq?



16

# Qarabağda və Şərqi Zəngəzurda yol infrastrukturu

## Dövlət başçısının Sərəncamına əsasən, Suqovuşan-Sərsəng su anbarı - Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulmasına 17,0 (on yeddi) milyon manat ayrılıb

İyirmi birinci yüzilliyin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşmən-dən azad etdi və tarixi ədalət bərpa olundu. Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın işğaldan azad olunmasında əsas şərtlənirici amil oldu. Təbii ki, ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və ordumuzun güclənməsi nəticəsində Azərbaycan Vətən müharibəsində döyüş meydanında qalib ölkə olduğunu göstərə bildi. Bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizlədi və üçrəngli bayrağımız yolumuzu gözləyən torpaqlarımızda dalğalandı. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, ədalətin təntənəsi idi. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi".



Bu gün bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusunun dünyanın qabaqcıl ölkələri sırasında adı çəkilir. Cənab İlham Əliyevin nitqində qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsi bizim imkanlarımızı bütün dünyaya göstərdi: "Bəzi aparıcı Qərb mətbu orqanlarında, analitik dərgilərdə belə bir fikir ortalığa atılıb ki, hətta dünyanın aparıcı ölkəsi bizim qarşımızda olsaydı, onların da bizim qabağımızda heç bir şansı olmayacaqdı. Yəni, bu, onu göstərir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Mən bunu dəfələrlə deyirdim, hərbçilərlə görüşlər əsnasında, digər tədbirlərdə deyirdim, bu gün biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik".






Əlbəttə ki, xalqın öz Prezidenti ətrafında bir yumruq olaraq birləşməsi tarixi qələbəmizin əldə olunmasına səbəb oldu. Bu, Azərbaycanın siyasi-diplomatik qələbəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan tərəfindən yüksək dəqiqliklə və vaxtında edilən siyasi-diplomatik gedişlər tariximizə yeni səhifə əlavə etdi. Qələbə tarixini yazdı. "Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq", deyən Azərbaycan Prezidenti bildirib ki, düşməni elə rəzil vəziyyətə qoyduq ki, onlar bizim qabağımızda diz çökdülər, ağ bayraq qaldırdılar və məcbur olub kapitulyasiya aktına imza atdılar. 44 günərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi. Artıq müharibənin başa çatmasından üç il ötür. İşğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə start verilib. Bu gün Azərbaycanda yeni bir həyat başlayıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlara yenidən nəfəs gəlir və bu məkanların infrastrukturu yenidən qurulur, yeni yollar çəkilir. Bildiyimiz kimi, 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri dağıdılmışdır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa işinə star verib, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşdırır.

Dövlət başçısı bu günlərdə "Suqovuşan-Sərsəng su anbarı - Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən səksən kilometr uzunluğu olan Suqovuşan-Sərsəng su anbarı ? Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 17,0 (on yeddi) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlər də bu sıradadır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır.

30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı qeyd etdiyimiz bu və ya digər layihələrin reallaşmasına imkan verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Prezident Administrasiyasında Türkiyənin Ədalət və İnkişaf Partiyasının nümayəndə heyəti ilə görüş keçirilib

Dekabrın 5-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin Xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Ədalət Vəliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbə nəticəsində və lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi ilə Azərbaycanın suverenliyini bərpa etdiyini, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı və məqsədyönlü bərpa-quruculuq işlərinin sürətlə davam etdirildiyini qonaqların diqqətinə çatdırıb. Qazanılmış Qələbədə Türkiyənin mənəvi-siyasi dəstəyinin əhəmiyyətindən bəhs edən şöbə



müdiri Azərbaycan ilə Türkiyə arasındakı strateji müttəfiqlik münasibətlərinin dünyada bənzərsiz olduğunu, hər iki tərəfin çoxşaxəli əməkdaşlığı dərinləşdirmək iradəsini nümayiş etdirdiklərini bildirib.

Ədalət Vəliyev dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın daha da dərinləşdiyini, iki hakim partiyanın əlaqələrinin gücləndirilməsinin ölkələrarası münasibətlərin inkişafına mühüm töhfə verdiyini, 2021-ci ildə YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək ikitərəfli münasibətlərin inkişafına xidmət edən məqsədyönlü fəaliyyəti vurğulayıb.

Zafer Sırakaya iki partiya arasında əlaqələrin inkişafının dövlətlərarası münasibətlərin mühüm elementi olduğunu, davamlı xarakter daşıyan qarşılıqlı səfərlərin həyata keçirilməsinin partiyalararası təmasların gücləndirilməsində mühüm əhəmiyyət kəsb etdiyini, Azərbaycanın tarixi Qələbəsi nəticəsində regional təhlükəsizlik və əməkdaşlıq üçün mühüm imkanlar yarandığını diqqətə çatdırıb. Görüşdə, həmçinin Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib.

# Tarix yaradan BÖYÜK ŞƏXSİYYƏT

**Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyev fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüşdür. Dahi Şəxsiyyət Heydər Əliyev tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elmini öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biridir.**







1969-cu ildən - məhz Onun birinci dəfə hakimiyyətə gəlişindən sonra - Azərbaycana rəhbərlik etməyə başladığı ilk gündən o zaman ən geridə qalmış respublikalardan biri sayılan ölkəmizi qısa vaxt ərzində keçmiş İttifaqın ən qabaqcıl respublikaları səviyyəsinə yüksətdi. Doğma xalqının böyük təəssübkeşi olan Ulu Öndər Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün ölkə həyatının bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. Kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı. Görülən bu və ya digər işlər deməyə əsas verir ki, böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyi Onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir.

## AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ YÜKSƏLDİ

Əlbəttə ki, həmin dövrdə baş verən hadisələr Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi ilə dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xilaskarlıq missiyası ilə dövlət müstəqilliyini qoruyaraq, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırıb və ölkəmizdə inkişafın təməli qoyulub. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanda böyük uğurlara, xalqın sosial rifah halının yaxşılaşdırılmasına, dövlətimizin dünyada yerinin və rolunun möhkəmlənməsinə səbəb olub. Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb.

## UĞURLARIN TƏMƏLİ

Müstəqilliyimizin ilk illərinə diqqət yetirsək, ictimai-siyasi vəziyyətin gərginliyini və belə bir zamanda, Azərbaycanın uçurum qarşısında olduğunu daha aydın görmək olur. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın qarşısında yeni-yeni imkanlar açdı və uğurların təməlini qoydu. Əlbəttə ki, bu gün böyük fəxarətlə söz açdığımız uğurların yolu çətin, ağır və məşəqqətli yoldan başlanıb. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı yenicə qazanılmış, dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan ölkəmizin ictimai-siyasi və iqtisadi-hərbi problemlərinin uğurlu həlli ilə tarixi hadisəyə çevrildi. Böyük Şəxsiyyət olmasaydı, Azərbaycanı heç bir qüvvə məhz yaşadığı ağır, çətin vəziyyətdən qurtara bilməzdi. Qardaş qırğını səviyyəsinə qalxmış qarşıdurmanı dayandıraraq, ölkəni sabit inkişaf və tərəqqi yoluna çıxarıb.

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. YAP-ın yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. YAP yaranandan, Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın rəhbərliyində Ulu Öndər Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi Dahi Şəxsiyyət dayanırdı. YAP Azərbaycan dövlətinin müstəqilliyinin qorunub-saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilata çevrildi.

## "MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI ƏBƏDİ YAŞAYACAQDIR"

1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin müstəqilliyini əbədi etmiş oldu. 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində müstəsna rol oynadı və Azərbaycan keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyin konsepsiyasını yaratdı. Bütün manevrlərə baxmayaraq, ən qısa müddətdə, ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Mürəkkəb siyasi şəraitdə Ümummilli Lider Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi.

"Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə, ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna olan hörmətdən, Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan yaranmışdı.

1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoyub. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi, ilk dəfə olaraq, insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişafı kimi seçib. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı.

Ümummilli Liderin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycan uğurla inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı islahatlar sayəsində Azərbaycan son iyirmi ildə iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atıb. Hər bir ölkənin inkişafında əsas rol oynayan sabitliyin möhkəmlənməsi əsasında Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün biri-birindən əhəmiyyətli layihələrin icrası sürətləndirilir.

Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

## SABİTLİYİN VƏ İNKİŞAFIN ÜNVANI

Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Cənab İlham Əliyev Onun siyasi kursunu uğurla davam etdirməklə, ölkəmiz sabitliyin və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyev hələ 2003-cü ildə Prezident seçkiləri ərəfəsində qeyd etmişdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Ötən on doqquz il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hər birini yerinə yetirmişdir. Möhtəşəm nailiyyətlərin əldə olunması Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Müasir dövrümüzdə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prioritet sahələrin inkişafının təmin edilməsinə hesablanan islahatlar qlobal miqyasda meydana çıxan yeni çağırışları, cəmiyyətin sosial sifarişlərini əhatə edir. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını yüksək səviyyədə təmin edib və bu, davam etdirilməkdədir. Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlərin qurulması, eləcə də Azərbaycanın çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarı qismində çıxışı dövlətimizin uğurla xarici siyasət yürütməsini özündə ehtiva edir. Ölkəmizin bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması və s. Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə daha da möhkəmləndirir.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə üç il əvvəl sentyabrın 27-dən etibarən Zəfər yürüşünə başladı. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal altında qalan torpaqlarımızı işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz qüdrətini, gücünü nümayiş etdirdi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə həkk etdi.

Mövcud münaqişənin Azərbaycanın Qələbəsi ilə başa çatmasından sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın dövr ərzində xarabazara çevrilmiş torpaqlarımız bu gün yenidən qurulur və böyük canlanma müşahidə olunmaqdadır. Sosial obyektlərin tikilməsi, yaşayış üçün şərait yaradılması, evlərin inşası işləri ardıcıl olaraq həyata keçirilir.

***Zümrüd BAYRAMOVA***

# Fransanın Cənubi Qafqazda sülh əvəzinə
# MÜHARİBƏ NİYYƏTİ



**Fransa Senatının axmaq qərarlar qəbul etməkdə davam etməsi artıq zərrə qədər də təəccüb doğurmur, çünki onun fəaliyyəti və mahiyyəti barədə kifayət qədər, ən azından bizə lazım olan qədər məlumatlıyıq. Bu dəfə də Ermənistana hücum silahlarının verilməsi məsələsinə baxmaq barədə Fransa Senatının həmin ölkə hakimiyyətinə tövsiyyə etməsi axmaqlığın növbəti təzahürü kimi diqqəti cəlb edib. Çünki Senat bununla da Fransanın Cənubi Qafqazda sülh yox, müharibə arzusunda olduğunu təkrarən ifşa etmiş olur və danışıqlar prosesində vasitəçi olaraq qəbul edilmədiyinin haqlı qərar olduğunu bir daha təsdiqləyir.**

Dəfələrlə şahidi olmuşuq ki, Fransa Senatı ermənipərəst mövqedə olduğunu nümayişkəranə şəkildə göstərməkdən belə çəkinməyib. Senatın qərarları isə birbaşa təxribat xarakterli olması ilə, Cənubi Qafqazda münaqişəni yenidən qızışdırmaq niyyəti ilə seçilib. Nümunə üçün qeyd edə bilərik ki, 44 günlük müharibə başa çatdıqdan və Ermənistanın baş naziri Nikol Paşinyan kapitulyasiya sənədinə, yəni, təslimiyyət aktına imza atdıqdan qısa zaman sonra, daha dəqiq desək, elə həmin sənədin imzalandığı ayın, 2020-ci ilin noyabr ayının sonunda, qondarma "Artsax" və onun müstəqilliyini tanıyan qətnamənin Fransa Senatı tərəfindən qəbul edilməsi birbaşa olaraq, münaqişənin yenidən qızışdırılmasından başqa heç nəyə xidmət edə bilməzdi. Məhz elə belə qətnamələr, axmaq bəyanatlar, düşünülməmiş qərarlar, məsuliyyətsiz şəkildə ifadə olunan fikirlər Ermənistanı çaşqınlığa salmışdı deyə, rəsmi İrəvan qanunsuz silahlı dəstələrin ərazilərimizdən çıxarmaq niyyətində görünmürdü və elə bu səbəbdən də bu ilin sentyabr ayında Azərbaycan anti-terror tədbirləri ilə torpaqlarını onlardan birdəfəlik təmizləməli oldu. Amma görünür, bu hadisələr nə fransızlara, nə də onların silah-sursatla şirnikləndirmələrinə aldanaraq, hər dəfə zərər görən ermənilərə qətiyyən dərs olmur.

Əgər Senatın ermənipərəstləri onları axmaq adlandırdığımızdan narazı olmuş olsalar, qondarma rejim və onun müstəqilliyini tanıyan qətnamələrinin ardınca qondarma rejim rəhbərinin bu ilin sonunda həmin o rejimin buraxılacağı, artıq mövcud olmayacağı barədə qərarını, fikirlərini xatırlamağı tövsiyyə edə bilərik ki, axmaq adlandırılmalarına görə haqlı olduğumuzu başa düşsünlər, qəbul etsinlər və qətiyyən narazı da qalmasınlar. Həqiqətən bu boyda ölkə Senatı üçün bunun çox gülünc və axmaq bir vəziyyət demək olduğunun həmin o ermənipərəst fransız senatorlar fərqində olmalı idilər, amma görünən odur ki, qətiyyən fərqində deyillərmiş. Elə isə, bəzi məqamları xatırlada bilərik ki, fərqində olsunlar. Bir sıra faktları, reallıqları xatırlada bilərik ki, təkcə fərqində olsunlar yox, həm də görsünlər ki, hər dəfə ermənipərəst mövqedən çıxış etdikləri zaman özlərini tamamilə gülünc vəziyyətə qoyurlar, axmaqlıqlarını sübut edirlər və bununla da başda Senat olmaqla, bütövlükdə ölkələrinin imincini, nüfuzunu yerə vurmuş olurlar, özü də faydasız bir ölkəyə, Ermənistana görə...

Avropa ölkəsi olan Fransa üçün Cənubi Qafqazın cırtdan ölkəsi Ermənistanı silahlandırmaq vacib görünə bilərmi? Əlbəttə ki, görünə bilməz. Elə isə fransızlara nə düşüb ki, ermənilərə bir qədər bundan öncə hərbi texnika göndərmişdilər və yenə də belə bir niyyətdədirlər? Ermənistan tərəfi 44 günlük müharibə zamanı yüzlərlə hərbi texnika itgisi ilə üzləşdiyi halda, həmin hərbi texnikanın məhz Bakıda, hərbi qənimətlər parkında olması fonunda Fransanın göndərdiyi 20-30 ədəd zirehli texnika nəyi dəyişə bilərdi axı? Bəlkə həmin hərbi texnika göndəriləndən sonra Ermənistanın "çiçəkləndiyinin" şahidi olan bircə dənə fransız göstərə bilərlər? Yaxud, ola bilsin bizim xəbərimiz yoxdur, bəlkə həmin hərbi texnika ilə Ermənistanın silah arsenalı dolub? Axı həmin arsenal demək olar ki, tamamilə boş idi və bir neçə sayda zirehli texnika ilə dola bilməzdi. Yaxşı bəs, dola bilməzdisə, bununla heç nəyə nail olmaq mümkün görünmürdüsə, bir neçə ədəd hərbi texnika göndərən Fransa nə düşünürdü onları göndərdiyi zaman? Bəs buna indi biz axmaqlıqdan başqa nə ad verə bilərik? Bütün bunların fonunda yenidən bir də Ermənistana hücum silahlarının verilməsi məsələsinə baxmaq barədə Fransa Senatının həmin ölkə hakimiyyətinə tövsiyyə etməsinin adını indi nə qoyaq? Tutaq ki, növbəti axmaqlıq kimi bir ad qoymağa tələsməsək, həmin o Senatın ölkə hakimiyyətinə tövsiyə edən ermənipərəst fransızları indi özlərinə nə ad vermək fikrindədirlər? Ən azından belə bir qənaətə gələ biliblərmi ki, etdikləri sadəcə olaraq münaqişənin qızışdırılmasına xidmət edə bilər və bu zaman Ermənistan daha dəhşətli fəlakətlə üzləşə bilər? Başa düşürlərmi ki, etdikləri onların sülh deyil, müharibə niyyətini açıq-aşkar ortaya qoyur?

Nəyə görə ermənilər özləri də başa düşə bilmirlər ki, fransızlar onlara beş-on ədəd silah, hərbi texnika göndərməklə, sadəcə olaraq, onları boş yerə ruhlandırıb müharibəyə, münaqişəyə, qarşıdurmaya sövq edirlər? Bunu da başa düşə bilmirlərmi ki, nə qədər silah-sursat, hərbi texnika göndərsələr də, hərb meydanında ermənilərin yerinə fransızlar döyüşməyiblər və bundan sonra da döyüşəsi deyillər? Dərk etmirlərmi ki, Fransa heç də Ermənistana fəlakətdən başqa heç nə gətirmir və indi həmin ölkə Senatının "tövsiyyəsi" də haylara yenə fəlakət vəd edir? Məhz vasitəçisiz danışıqların müzakirə edildiyi bir vaxtda, sülh istiqamətində hərhansı addımların atılacağı gözlənilən bir dönəmdə işğalçı ölkəyə silah göndərməyi müzakirə etmək, ara qarışdırmaq, qarşıdurma yaratmaq, münaqişə və müharibə niyyətindən başqa bir niyyətin olmaması deməkdir. Elə həmin ölkənin prezidenti Emmanuel Makronun özünün də birbaşa ermənipərəst mövqedən, özü açıq şəkildə çıxış etməsi, sülh gündəminə zərrə qədər də müsbət təsirli ola bilməz. Əksinə, onsuz da ruslardan, Rusiyadan əlləri üzülən və "ağa" axtarışında olan ermənilər üçün bu, yəni, bir Avropa ölkəsi prezidentinin belə ədalətsiz mövqeyi, işğalçının yanından olması görüntüsü, təxribatçıların arzularının yenidən cücərməsi deməkdir. Bütün bu sadalananlar bir Avropa ölkənin hazırda Cənubi Qafqazda müharibə niyyətində olmasını təsdiqləyən məqamlardır və hər halda, hücum silahlarının verilməsi məsələsinə baxmaq barədə öz ölkəsinin hakimiyyətinə "tövsiyyə" edən Senat da bunun fərqində olmalıdır.

Ola bilsin ki, ermənilər fransızların belə silah "iyanə" etmələrindən, yaxud hansısa bəyanat, ya da qətnamə qəbul etməsindən, eyni ilə 2020-ci il noyabr ayında Fransa Senatının qətnamə qəbul etdikləri zaman olduğu kimi, ruhlana və özlərini "xoşbəxt" hesab edə bilərlər. Amma bərk yanıldıqlarını gec də olsa dərk etsələr, bütün bunların mənasız olsuğunu xatırlasalar özləri üçün yaxşı olar. Ən azından, xatlasalar ki, bir zaman həmin qətnamənin yalnız kağız üzərində qalacağını biz dəfələrlə qeyd etmişdik və qondarma rejim rəhbərinin qeyd olunan qərarından sonra buna zərrə qədər də şübhə qalmadı, bu halda heç olmasa indi bir doğru nəticə çıxara bilərlər. Bir-iki il bundan əvvəl Fransa Senatı tərəfindən qəbul olunan, sonra da kağız parçası üzərində qalan həmin o qətnaməni dırnaqarası "tarixi hadisə" adlandıran ermənilər gec də olsa reallıqları görməli, başa düşməli idilər. Avropa ölkəsinin bölgədə müharibəni qızışdırmaq niyyətində olduğunu görməməklə, yaxud görməməzliyə vurmaqla, Ermənistanın siyasi mövcudluğunu nə qədər böyük risk altında qoyduqlarını həmin ölkənin hakimiyyəti də, ictimaiyyəti də geç də olsa dərk etməlidirlər.

Öz ölkəsinin hakimiyyətinə "tövsiyyə" edən Fransa Senatının özünə müəyyən tövsiyyələr vermək gərəkir. Ən azından xatırlatmaq lazım gəlir ki, hazırda müharibə şəraitində olan, öz ərazisində, özü də öz torpaqları, suverenliyi uğrunda döyüşən, təbii ki, buna görə də silah-sursata ehtiyac duyan Ukraynadır və həmin ölkəyə silah verilməsi barədə Senatın öz ölkəsinin hakimiyyətinə "tövsiyyə" verməsi məntiqli sayılardı. Axı həmin o Ukrayna hakimiyyəti, döyüş meydanında vəziyyəti dəyişməyə kömək edəcək hər şeyə ehtiyac duyduğunu dəfələrlə bəyan da edib. Maraqlıdır, niyə Fransa Senatı müharibə şəraitində olan ölkə barəsində yox, ərazisində heç bir hərbi əməliyyatlar aparılmayan Ermənistan barədə "tövsiyyə" verməli olur? Faktiki olaraq Rusiyanın ərazi iddiası ilə Ukrayna ərazisində müharibə gedir, amma nə Ermənistan ərazisində müharibə getmir, nə də hansısa ölkə, eləcə də Azərbaycan ermənilərə qarşı ərazi iddiası ilə çıxış etmir. Hətta rəsmi Bakı dəfələrlə bu barədə bəyan edib və bildirilib ki, Ermənistana qarşı heç bir ərazi iddiasından söhbət belə gedə bilməz. Elə isə niyə Ukraynaya deyil, Ermənistana silah-sursat, hərbi texnika verilməsi ilə bağlı Fransa Senatı "tövsiyyə" etmək qərarına gəlib? Niyə axı Fransa ardıcıl şəkildə, mütəmadi olaraq, işğalçı ölkəni silahla doldurmaqdadır və niyyəti nədən ibarətdir? Təbii ki, Fransanın regionda müharibə niyyəti artıq özünü çılpaq şəkildə göstərir, bu çirkin niyyət açıq-aydın şəkildə özünü biruzə verir.

Məsələ burasındadır ki, Azərbaycan tərəfi işğalçılığı hələ də dövlət siyasəti hesab edən qonşu ölkənin təxribatlarına hər an hazırdır və istənilən anda həmin təxribatlara qarşı tutarlı cavab vermək əzmindədir, hansıki bunu artıq ermənilər də, fransızlar da yaxşı bilirlər. Yaxşı bilirlər ki, hər dəfə olduğu kimi, yenə də ermənilər baş qaldırıb münaqişə, savaş, müharibə etmək istəsələr, təxribat törətmək niyyətinə düşsələr, eyni ilə bundan əvvəlki qaydada, dərhal başları dəmir yumruqla əziləcək. Yəni, qısa şəkildə desək, Azərbaycana qarşı hansısa hərbi əməliyyata başlayacaqları təqdirdə dərhal layiq olduqları cavabı ordumuz tərəfindən alacaqlarını ermənilərdən yaxşı bilən olmaz, çünki dəfələrlə bunun şahidi olublar. Onlar çox yaxşı dərk edirlər ki, üzə çıxaracaqları hərbi texnika, lap elə Fransanın göndərdiyi zirehli maşınlar da az sonra Azərbaycan paytaxtında, Bakıda, Qənimətlər Parkında nümayiş oluna bilər. Bir sözlə, fransızların ermənilərə göndərdikləri hərbi texnika istifadə ediləcəyi təqdirdə, bizim üçün uzaq başı, qənimət götürülən texnikanın sayının artması deməkdir. Amma ermənilər üçün bu, fəlakətlər vəd edir, çünki həmin o göndərilən və göndərilməsi Fransa Senatı tərəfindən öz ölkəsinin hakimiyyətinə "tövsiyyə" edilən hərbi texnikanı fransızlar deyil, ermənilər özləri istifadə etməli olacaqları təqdirdə dəmir yumruq da fransızların yox, onların başına endiriləcək. Elə buna görə də fransızlar çox rahatlıqla, heç bir tərəddüd etmədən "tövsiyyə" də verirlər və işğalçı ölkəni silahlandırmaqda davam da edirlər.

Ermənilər özləri dərk etməlidirlər ki, Fransa hökuməti, lap elə Makron özü, Senatda onunla "eyni ağılda" olanlar Ermənistana hərbi texnika göndərməklə, yaxud bu barədə "tövsiyyə" verməklə, regionda müharibə törətmək niyyətlərini qətiyyən gizlətmirlər. Dərk etməlidirlər ki, onlar marionet kimi fransızlar tərəfindən "uzaqdan" idarə olunurlar və göndərdikləri hərbi texnika, yaxud həmin texnikanın göndərilməsi barədə fikirlərlə, sadəcə olaraq qızışdırılırlar ki, müharibəyə sövq edilsinlər. Sonuncu erməniyə qədər Ermənistan vətəndaşlarının tələf olması, qırılması Fransa hökumətinin, onun Senatının, sıravi fransızların heç vecinə də deyil. Lakin Fransanın Cənubi Qafqazda sülh deyil, müharibə niyyəti region ölkələrinin, ələlxüsus da Ermənistan adlı məğlub bir ölkənin, acınacaqlı durumda, səfalət içərisində olan bir dövlətin vecinə olmaya bilməz, çünki zərbəsi Avropa ölkəsinə deyil, birbaşa hayların özlərinə dəyəcəyi bəllidir. Ən azından Fransanın hərbi texnika göndərməsi, yaxud bu barədə "tövsiyyə" etməsi ilə müharibə niyyətinin nəticədə Ermənistan hakimiyyəti, şəxsən erməni baş nazir Nikol Paşinyan üçün nəyin bahasına başa gələcəyini özlərinin indidən dərk etmələri pis olmazdı, çünki bu dəfəki hərbi-siyasi məğlubiyyətləri elə erməni cəmiyyətinin özü tərəfindən qətiyyən bağışlanılmayacaq və bu, erməni baş nazirinin də, işğalçı ölkə hakimiyyətinin də, bütövlükdə Ermənistan adlı ölkənin də siyasi süqutu olacaq.

***İnam Hacıyev***

# Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz

**İLHAM ƏLİYEV: "SPECA-ya üzv ölkələrində isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur"**




Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan həm də dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Bunun da səbəbi son 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir. Məhz İlham Əliyevin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri Azərbaycanın nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır. Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib. Bunun nəticəsidir ki, bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir.

Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 24-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilmiş BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündəki çıxışı bir neçə cəhətdən mühüm əhəmiyyət daşımaqdadır. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə vacib olan siyasi sabitlik amilinə toxunaraq qeyd edib ki, sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. SPECA-ya üzv ölkələrində isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur.

Dövlət başçısı beynəlxalq riyakarlığın təzahüründən söz açaraq bildirib ki, dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Ermənistan kimi ölkəyə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir: "Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır".

"Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir. SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar",-deyə Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa xüsusi önəm verdiyini diqqətə çatdıran Prezident İlham Əliyev ölkəmizin bu regiondakı dövlətlərlə əlaqələrini belə xarakterizə edib: "Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. 30 ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur".

Beləliklə də, dövlət başçımızın söylədiyi kimi, bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

## AZƏRBAYCANIN GÜCLÜ İQTİSADİYYATI MÜSTƏQİL XARİCİ SİYASƏT KURSU HƏYATA KEÇİRMƏYƏ İMKAN YARADIR

Bəli, SPECA-nın yaranmasından keçən müddət ərzində həm regionda, həm də dünyada müxtəlif hadisələr yaşanıb. Heydər Əliyev Mərkəzində keçirilən Zirvə toplantısında dövlət başçısı İlham Əliyev ölkəmizin iqtisadiyyatında baş verən inkişafın və gələcəkdəki potensialların qiymətləndirilməsi ilə bağlı çıxışında Azərbaycan iqtisadiyyatının dünənini bu gününü şərh edərək, gələcəkdəki hədəflərin anonsunu verib. Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır. Dövlət başçısı vurğulayıb ki, Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb. Azərbaycanda əlverişli investisiya mühiti yaradılıb. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür.

Ölkə başçısının söylədiyi kimi, 2020-ci ilin noyabr ayında Azərbaycan xalqı öz tarixinin ən parlaq Qələbəsinə imza atdı. Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistanı məğlub etdi və işğala son qoydu. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il kağız üzərində qalmış dörd qətnaməsinin icrasını özümüz təmin etdik. Ermənistan öz öhdəliklərini yerinə yetirmədi. Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar. "Boz zona"ya son qoyulması məqsədilə bu il sentyabrın 19-20-də Qarabağda antiterror tədbirləri keçirildi. Cəmi bir gün ərzində 1992-ci ildə xalqımıza qarşı soyqırımının törədildiyi Xocalı şəhəri də daxil olmaqla, bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq.

Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. "Böyük Qayıdış" Proqramından danışan ölkə başçısı qeyd etdi ki, keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq.

## BU, PREZİDENT İLHAM ƏLİYEVİN QLOBAL LİDERLİK NÜFUZUNUN GÖSTƏRİCİSİDİR

Bəli, bütün bu uğurlar Azərbaycan Prezidenti İlham Əliyevin yaratdığı yeni reallıqlar, yürütdüyü tam müstəqil siyasət və qlobal lider kimi artan nüfuzu buna imkan vermir. Sözü imzası qədər keçərli olan, verdiyi vədləri hər zaman reallaşdıran və etibarlı tərəfdaş statusuna sahiblənən İlham Əliyev həyata keçirdiyi diplomatiya ilə əsl reallığı nümayiş etdirir. Həqiqət tərəfdarları isə Azərbaycanın yanında olduqlarını, ölkəmizə hər zaman dəstək göstərdiklərini əməlləri ilə sübuta yetirirlər. Xüsusən də reallıq budur ki, Prezident İlham Əliyev beynəlxalq problemlərin həllində mühüm rol oynayan və müasir dövrdə çoxqütblü, ədalətli və demokratik dünya düzəninin formalaşmasında müsbət potensiala malik olan Qoşulmama Hərəkatına sədrliyi üzv dövlətlərin mütləq əksəriyyəti tərəfindən təqdir edilir. Əgər belə olmasaydı, bitən sədrlik müddəti yenidən Azərbaycana həvalə olunmazdı. 2022-ci ildə ölkəmizin hərəkata sədrlik müddət başa çatsa da, üzv dövlətlər Azərbaycanın təşkilata uğurlu sədrliyini nəzərə alaraq əlavə 1 il müddətinə sədrlik etməsi ilə bağlı təklif irəli sürdülər. Beləliklə, Azərbaycanın hərəkata sədrliyi 2023-cü ilə qədər uzadıldı.

Göründüyü kimi, bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan bir ölkədir. Bununla yanaşı, müstəqil Azərbaycan həm qüdrətli, həm də dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Bütün bu uğurların yeganə səbəbi isə, əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətdir. Azərbaycana rəhbərlik etdiyi 20 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb. Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından dünyada ən qabaqcıl yerlərdədir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir. Artıq heç kim Azərbaycanla təhdid dili ilə danışa bilməz. Bu fikirdə, bu niyyətdə olanlara İlham Əliyev çox mükəmməl şəkildə xəbərdarlıq edib: "Bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki mən Prezidentəm, belə qüvvə olmayacaqdır". Otuz ilə yaxın aparılan danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistanın məqsədi işğalı qoruyub saxlamaq idi. 2019-cu ildə Ermənistanın baş nazirinin o vaxt işğal altında olan Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması danışıqlar prosesini tamamilə məhv etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN SAMMİTDƏ ƏSAS ÇAĞIRIŞLARI

Prezident İlham Əliyevin sammitdə bəyan etdiyi kimi, son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik və ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. "Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur."

Azərbaycanın sədrliyi ilə SPECA regionun iqtisadi inkişafına yönəlik çox gözəl imkanlar yaradan platformaya çevrilməkdədir. SPECA-nın son 25 illik tarixi dövründə ilk dəfə səviyyə iştirakçı ölkələrin dövlət başçıları səviyyəsinə qalxdı. Eyni zamanda uzun müddətdir, plan olaraq qalan Etimad Fondunun yaradılmasına nail olundu. Prezident İlham Əliyevin dəvəti ilə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibinin fəxri qonaqlar qismində iştirak etmələri daha geniş iqtisadi əməkdaşlıq formatı üçün təkan ola bilər.

Bir sözlə, bütün bu deyilənlər bir daha onu təsdiqləyir ki, Prezident İlham Əliyevin şəxsi nüfuzu, yürütdüyü siyasət, qazanılan uğurlar bu gün Azərbaycanın dünya birliyində yerini möhkəmləndirir, xalqımızı və dövlətimizi perspektivdə hələ möhtəşəm sosial, iqtisadi uğurlar, diplomatik qələbələr gözləyir.

***RƏFİQƏ KAMALQIZI***

# "The Washington Post" şər yuvasına çevrilir

*ABŞ özünün qara işlərinə jurnalistlərini də şərik edir*

Azərbaycanın iqtisadi, siyasi, hərbi cəhətdən güclənməsi yerli və xarici qüvvələr ciddi şəkildə narahat olmağa başlayıb. Xüsusilə də Azərbaycanın Vətən Müharibəsi ilə Ermənistan ordusunu darmadağın edərək, ərazi bütövlüyünü bərpa etməsi və Xankəndi şəhərində hərbi parad keçirməsi dünya güclərini əndişələndirib. Azərbaycanın dünya siyasətini müəyyənləşdirən və istənilən məsələdə diktə edən tərəf olmasını qəbul etmək istəmədiklərindən anormal vasitələrlə ölkəmizə problemlər yaratmağa çalışırlar. Xüsusilə də, ABŞ, Fransa, Almaniya kimi dövlətlər Azərbaycana qarşı qarayaxma kampaniyası həyata keçirməklə açıq formada məkrli niyyətlərini nümayiş etdirirlər. Təbii ki, bu məsələdə erməni lobbisinin sifarişləri də rol oynayır. Beynəlxalq normalara görə, hər hansı dövlət başqa bir suveren dövlətin iç məsələlərini müzakirə edə və hər hansı bir qərarla çıxış edə bilməz. Lakin ABŞ Konqresi və ya Senatı Ermənistanın dövlət istəklərinə erməni lobbisinin maraqlarına uyğun olaraq dəfələrlə Azərbaycanla bağlı anormal dinləmələr keçirib. Dinləmələr Ermənistandakı revanşist qüvvələri ruhlandıran və onları və Cənubi Qafqaza sabitliyi pozmağa xidmət edən qərarların qəbulu ilə müşahidə olunur. Hətta ara-sıra anormal qərarlar da qəbul edirlər. Söz yox ki, ABŞ Qarabağı azad edən ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müstəqil siyasətini həzm edə bilmir və ona qarşı belə çirkin kampaniyalar təşkil edir. Lakin diqqətdən qaçmamalıdır ki, bu, təkcə Prezident İlham Əliyevə deyil, ümumilikdə Azərbaycan xalqına və dövlətinə qarşı hörmətsizlik, təhqirdir. Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr bunun daha bir nümunəsi sayıla bilər. Söz yox ki, dinləmələrin keçirilməsinə ən çox dəstək verən ABŞ-dakı erməni lobbisi olub. Bu da onu deməyə əsas verir ki, dünyanın aparıcı dövləti kimi özünü təqdim etməyə çalışan ABŞ, əslində, Kardaşyan kimi fahişə modellərin əlində alət olub. Nəzərə almaq lazımdır ki, qondarma tədbirdən öncə tədbirin təşkilatçısı Konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin Ermənistanın ABŞ-dakı səfiri Lilit Makuns ilə görüşüb. Görüşün 5 saata qədər davam etməsi onu təsdiq edir ki, tərəflər Azərbaycana qarşı necə şər və böhtanlar səsləndirmək, iddialar və ittihamlar irəli sürmək məsələlərini geniş və əhatə şəkildə müzakirə edib, razılaşma əldə ediblər. Dinləmələr gözlənildiyi kimi, erməni lobbisinin tələblərinə uyğun keçirilib. Tomas Kin ermənilərin Qarabağdan guya etnik təmizləmə yolu ilə çıxarılması məsələsinə etiraz edərək deyib ki, Birləşmiş Millətlər Təşkilatının Komissiyası və Beynəlxalq Qırmızı Xaç Komissiyasının Ermənistana köç edən Qarabağ erməniləri ilə bağlı xüsusi arayışı var. Orada çox aydın şəkildə yazılıb ki, onlar Qarabağdan etnik təmizləmə ilə məcburi şəkildə köçürülməyib. Özləri könüllü şəkildə köçüb gediblər. Təbiidir ki, bütün bunları Tomas Kin də bilir. Sadəcə, Azərbaycanın Qarabağda əldə etdiyi qələbəsinə, insanlarımızın öz yurd-yuvalarına qayıdışına qısqanclıqla yanaşmalar nümayiş etdirilib. Bu anormal müzakirələrdən sonra ermənipərəst konqresmenlər Azərbaycana yardımların azaldılacağı barədə çıxışlar da ediblər. Ancaq bunlar anlamırlar ki, zatən Amerika Birləşmiş Ştatları Azərbaycana Ermənistandan qat-qat az yardımlar göstərir. Bununla yanaşı qeyd olunmalıdır ki, ölkəmizin hər hansı kənar yardımlara ehtiyacı yoxdur. Azərbaycan işğaldan azad edilən ərazilərini öz gücünə qurub yaradır. Artıq görülən




böyük quruculuq, təmir-bərpa işlərinin nəticəsi olaraq bir sıra kənd və şəhərlərə soydaşlarımız köçürülüb. Proseslər uğurla davam etdirilməkdədir.

### Cəmiyyət ermənipərəst konqresmenlərə etiraz edir

Haqlı olaraq Azərbaycan cəmiyyəti ABŞ-ın müəyyən dairələrinin, o cümlədən Konqresin, Senatın qərəzli mövqe sərgiləməsinə və erməni maraqlarına xidmət edən qərarlarla çıxış etməsinə sərt etiraz bildirir. Noyabrın 22-də Milli Məclisin payız sessiyasının plenar iclasında ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" ilə əlaqədar Azərbaycana qarşı qəbul etdiyi qərarına sərt münasibət bildirilib. Parlamentin komitə sədrləri və deputatlar ABŞ Senatının ölkəmizə qarşı yönəldilmiş ədalətsiz aktı barədə fikirlərini qeyd ediblər. Senatın aktında bölgədən könüllü getmiş erməni sakinlərin zorla köçürüldüyü iddia edilir. Bu, BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların rəylərinə tamamilə ziddir. Sonra parlamentin komitə sədrləri və deputatlar ABŞ Senatının ölkəmizə qarşı yönəldilmiş ədalətsiz aktı barədə fikirlərini qeyd etdilər. Milli Məclisin sədri Sahibə Qafarova çıxışında bildirib ki, Azərbaycan 2020-ci ildə öz torpaqlarını işğaldan azad etdikdən sonra Ermənistanla beynəlxalq hüququn prinsiplərinə əsaslanan sülh müqaviləsi imzalamaq təşəbbüsü ilə çıxış etmişdir. Lakin Qarabağı sözdə Azərbaycan ərazisi kimi tanıyan Ermənistan, təəssüf ki, bu üç il ərzində siyasi və hərbi təxribatlarla məşğul olmuşdur. Təəssüf ki, Ermənistan sülh naminə çalışmaq əvəzinə hələ də Azərbaycana qarşı yalan və əsassız ittihamlar əsasında beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır, ölkəmizə qarşı kampaniyada bütün imkanlardan istifadə edir. Bu məsələ ilə əlaqədar Azərbaycana qarşı bir sıra qeyri-obyektiv və ədalətsiz qətnamələr qəbul edilmişdir. Bu ədalətsizliyə ABŞ-ın da qoşulması təəssüf hissi doğurur.

### ABŞ jurnalistlərdən qarayaxma kampaniyasında alət olaraq istifadə edir

Diqqətçəkən məqam ondan ibarətdir ki, ABŞ Konqresi və Dövlət Departamenti özlərinin qara işlərinə, bəd əməllərinə qəzet və jurnalların əməkdaşlarını da cəlb edirlər. Dəfələrlə "The Washington Post" qəzeti Azərbaycan haqqında reallıqdan uzaq olan məqalələrlə çıxış edib. Yalnız 2023-cü ildə qəzetdə Azərbaycanda söz azadlığı, korrupsiya, Ermənistanla münasibətlərə dair 5 məqalə dərc edib və onlardan 3-cü redaksiya məqaləsi olub. Özünü obyektivlik simvolu hesab edən qəzetin keçmişinə və hazırkı durumuna baxdıqda isə onun heç azad söz və demokratiya carçısı olmadığını, ABŞ-da müəyyən siyasi və maliyyə dairələrinin əlində vasitə olduğunu görmək olar. İlk olaraq, "The Washington Post" barədə onu demək olar ki, qəzet Demokratlar Partiyasına yaxınlığı ilə seçilir. Yarandığı 1877-ci ildən bəri ortabab sayılan qəzetin XX əsrin 60-cı illərində nüfuzlu KİV sırasına daxil olması da məhz bu amillərlə əlaqəlidir. Sirr deyil ki, 1965-ci ildə baş redaktor seçilən Bencamin Bredli Demokratlar Partiyasından Prezident olan Con Kennedi ilə yaxın dost olub və bu dövrdən yüksəlişə qədəm qoyub. Bundan başqa, qəzetin 2 əməkdaşı 1974-cü ildə respublikaçı prezident Riçard Niksonun istefası ilə nəticələnən araşdırmanın da əsas icraçısı olub. 26 il qəzetə baş redaktorluq edən Bencamin Bredli, ümumiyyətlə, maraqlı simadır. Onun 1950-ci illərdə Mərkəzi Kəşfiyyat İdarəsinin agenti olduğu və ABŞ-ın Fransadakı səfirliyində çalışarkən bu qurum üçün kəşfiyyat məlumatları topladığı məlumdur. Görünür ki, müəyyən dairələr qəzetin yüksəlişində və ictimai rəyi öz istəklərinə və maraqlarına uyğun şəkildə formalaşdırmaq üçün istifadə etməkdə maraqlı olublar. O zamandan bəri "The Washington Post" qəzeti Demokratlar Partiyasının sol qanadının əsas media ruporu sayılır. Bu qanada daxil olan siyasətçilər, nüfuzlu maliyyə mərkəzləri və hərbi simalar ABŞ-ın yox, öz qruplarının yaxud şəxsi maraqlarının naminə istər ABŞ daxilində, istərsə də dünyanın fərqli ölkələrindəki siyasətçiləri və hökumətləri hədəfə alırlar. Bu baxımdan, "The Washington Post" qəzeti də sponsorlarının tapşırığı ilə müntəzəm əsasda Azərbaycanı hədəfə alır, ölkəmiz haqda mənfi imic formalaşdırır, öz beynəlxalq hüquqla tanınan ərazilərini bərpa etmiş Azərbaycanı militarist ölkə kimi təqdim edir, Qarabağı isə uzun illər öz redaksiya məqalələrində "mübahisəli ərazi" kimi təqdim edirdi. Bu işdə sözügedən qəzetin erməni əsilli kolumnisti, Azərbaycana qarşı xüsusi qərəzi və böhtanları ilə seçilən Devid İqnatiusun da müəyyən rolu var. Sirr deyil ki, xarici siyasət mövzusunda yazıları ilə ABŞ cəmiyyətində rəy formalaşdıran jurnalist Qarabağ məsələsi və "erməni soyqırımı" məsələsinə görə tez-tez Azərbaycanı və Türkiyəni hədəfə alır. Amma nəzərə almaq lazımdır ki, o, bu prosesdə önəmli fiqur deyil, sadəcə vasitədir və qəzetin redaksiya siyasətini pərdə arxasında olan şəxslər və qurumlar müəyyən edir. Məhz bu qərəzli və merkantil maraqlara əsaslanan siyasət qəzetin dəfələrlə qeyri-obyektivlikdə, böhran və yalan yaymaqda, "fake news" istehsalçısına çevrilməsi ilə bağlı ittihamlara səbəb olub.

### "The Washington Post" sifarişlər yerinə yetirən dərnəyə çevrilib

Dəfələrlə "The Washington Post" qəzeti ciddi tənqidlərlə və qərəzli, sifarişli məqalələri ilə gündəmə gəlib. Məsələn, hər kəsə məlumdur ki, qəzetin himayədarı olan dairələr ABŞ-ın eks-prezidenti, qarşıdan gələn seçkilərdə Respublikaçılar Partiyasından ən şanslı namizəd olan Donald Trampa qarşı düşmən mövqedədirlər. Buna görə də, qəzetin səhifələrində Donald Trampın siyasi və biznes fəaliyyəti, şəxsi həyatı barədə tez-tez tənqidi, bəzən isə ittiham və konfidensial məlumatlarla zəngin məqalələr çıxır. Jurnalist peşəsinə yaraşmayan qeyri-peşəkarlıq, qərəz və tələskənlik "The Washington Post"u dəfələrlə xoşagəlməz situasiyalara salıb və reputasiyasına ciddi zərbələr vurub. Təsadüfi deyil ki, oxucu auditoriyasının azalması səbəbi ilə "The Washington Post" qəzeti 2023-cü ili 100 milyon dollar zərərlə başa vuracaq. Reuters-in məlumatına görə, qəzet 10%-ə qədər əməkdaşını da ixtisar etməyi planlaşdırır. Ümumilikdə isə, yanlış redaksiya siyasəti, ABŞ-ın Konqresindən və Senatından, eyni zamanda, erməni lobbisindən asılılıq qəzetin imicini tamamilə təkləyib. Artıq bu "The Washington Post" qəzetinə ciddi qəzet olaraq yanaşılmır. Digər tərəfdən, qəzetin bəzi jurnalistlərinə şübhə ilə yanaşılır. Bu isə qəzetin fəaiyyət dairəsinin daralması ilə yanaşı, nüfuzun tamamilə alt-üst olması deməkdir. Ciddi qəzet imicini bərpa etmək üçün "The Washington Post" boyunduruqdan çıxmalı və müstəqil fəaiyyət yolu tutmalıdır.

***İLHAM ƏLİYEV***

## UNEC QS Dayanıqlılıq Reytinqi 2024 üzrə Azərbaycanda birincidir

İkinci dəfə hazırlanan QS Dayanıqlılıq Reytinqi 2024 (QS Sustainability Ranking) açıqlanıb. 95 ölkədən 1403 universitetin iştirak etdiyi reytinqdə UNEC ilk dəfə olaraq yer alıb. UNEC Azərbaycanda 1-ci, Asiyada 327-ci, dünyada isə 1051-1100-cü universitet olub.

QS Dayanıqlılıq Reytinqi üç əsas hissədən ibarətdir: Ətraf mühitə təsir faktoru, Sosial təsir faktoru və İdarəetmə. UNEC "Ətraf mühit dayanıqlılığı" göstəricisi üzrə dünyada 305-ci, "Bərabərlik" göstəricisi üzrə 638-ci və "İdarəetmə" göstəricisi üzrə isə 504-cü universitetdir.

Reytinqi müəyyən etmək üçün istifadə edilən məlumatların 29 faizi universitetlər tərəfindən təqdim edilir, 71 faizi isə QS tərəfindən rəsmi mənbələrə və ölkənin dayanıqlılıq üzrə beynəlxalq reytinq göstəricilərinə istinadən toplanır. QS Dayanıqlılıq Reytinqi QS Dünya Reytinqində (QS World University Rankings) 5 faiz paya malikdir.



ARAŞDIRMA

# Uşaqlar hansı yaşda sünnət edilməlidir?

**Doğuşdan sonrakı ilk bir neçə gün körpənin rahatlığı və yaranın erkən sağalma qabiliyyəti baxımından sünnət üçün ən ideal günlərdir. İlk bir neçə gündə həyata keçirilə bilməzsə, ilk ayın sonuna qədər lokal anesteziya ilə yeni doğulmuş körpəyə sünnət edilə bilər. Lakin bu müddət keçibsə, 4-18 aylıq dövrdə və ya 4, 5-5 yaşdan sonra etməkdə fayda var. Bununla yanaşı, bəzi mütəxəssislər iki yaşından sonraya qalan sünnətlərin 6 yaşından sonra edilməsini tövsiyə edir.**

## Bəs, sünnət üçün ən uyğun vaxt nə zamandır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.



İlk olaraq qeyd edək ki, yeni doğulan körpənin sünnəti mütləq mütəxəssis həkim tərəfindən edilməlidir. Sünnət əsl cərrahi əməliyyatdır və mümkünsə əməliyyat otağı şəraitində aparılmalıdır. Bu məsələ gözardı edilməməlidir. Çünki uyğun olmayan şəraitdə və ya uyğun olmayan avadanlıqla sünnət həyata keçirildikdə infeksiya kimi problemlər yarana bilər.

Yeni doğulan dövrdən kənar körpələrdə və uşaqlarda sünnət ümumi anesteziya altında və əməliyyat otağı şəraitində edilməli olan cərrahi əməliyyatdır. Bunun səbəbi bu metodun minimal psixoloji təsirə malik olması və eyni zamanda, yaxşı ağrı nəzarətinin təmin edilməsidir.

Təxminən 15-20 dəqiqə davam edən əməliyyatdan sonra ümumi anesteziya altında edilən sünnət əməliyyatları üçün uşaq orta hesabla 3 saat, lokal anesteziya ilə edilən yeni doğulan sünnətlər üçün isə 1 saat sonra evinə göndərilə bilər.

## Sünnətin faydaları

Araşdırmalara görə, dünyada bəzi dini icmalar tərəfindən sünnətə istəyə bağlı prosedur kimi üstünlük verilsə də, zaman-zaman sünnət lehinə çıxan elmi nəşrlər digər dinlərə mənsub olan icmalar arasında sünnət olunanların sayının artmasına səbəb olur. Lakin etiraf etmək lazımdır ki, bunu dünyanın yarıdan çoxu həyata keçirmir.

Sünnətin faydalı olduğu düşünülən məsələləri belə ümumiləşdirə bilərik.

## Sidik yollarının iltihabı

İlk 6 ayın sonunda sünnət edilmiş və sünnətsiz körpələr arasında aparılan araşdırmalar sünnətli körpələrdə bu riskin daha az olduğunu göstərib.

## Gigiyenik üstünlük

Qapalı sünnət dərisi mikroorqanizmlərin yerləşməsi üçün uyğun bir mühitə çevrilir. Çünki açıq penis ucunu təmizləmək daha asandır.

## Penis xərçəngi

Müxtəlif nəşrlərdə sünnət edilənlərin sünnət olunmayanlara nisbətən penis xərçənginə tutulma ehtimalının daha az olduğunu təsdiqləyən nəticələr bildirilmişdir. Bunun açıq penis ucundakı zədənin asanlıqla tanınması və gigiyenik üstünlüyü ilə əlaqədar olduğu da şərh edilir.

## Uşaqlıq boynu xərçəngi

Nəticələr sünnət edilmiş kişilərin partnyorlarının da uşaqlıq boynu xərçənginə tutulma ehtimalının daha az olduğunu təsdiqlədiyi bildirilmişdir.

## Erkən boşalma

Sünnət edilmiş kişilərdə erkən boşalma probleminin daha az rast gəlinməsinin səbəbinin açıq penis ucunun alt paltarı ilə daimi təmasda olmasının həddindən artıq həssaslığı getdikcə azaltması olduğu iddia edilir.

## Sünnət necə və harada edilməlidir?

Cərrahi əməliyyatı xəstəxana şəraitində və ya hətta əməliyyat otağında həyata keçirmək ən yaxşı seçim olardı. Hazırda bir çox səhiyyə ocaqlarında sünnət yerli və ümumi anesteziya altında həyata keçirilir.

## Sünnət müalicə prosesi

Yeni doğulan dövrdə sünnət haqqında fərqli fikirlər olsa da, körpənin sürətli sağalma xüsusiyyətindən faydalanmaq üçün xüsusilə həyatının ilk iki həftəsində sünnət edilməsini tövsiyə edənlərin sayı getdikcə artır.



## Sünnət necə edilir?

1. Sünnət dərisi yaşa uyğun iki metal lövhə arasında sıxılır və xarici hissəsi kəsilir. Qanamazdır və tez-tez yeni doğulmuş körpələrin sünnətinə üstünlük verilir.

2. Lazer üsulu

Bu, sünnət dərisinin elektrik alətlər ilə kə-



silməsidir. Tövsiyə edilmir, çünki bacarıqsız əllərdə təhlükəli ola və qalıcı zədələrə səbəb ola bilər.

3. Cərrahi üsul

Klassik olaraq ucları cərrahi yolla kəsib tikməklə həyata keçirilir. Bu, Türkiyədə ən çox qəbul edilən üsuldur.

## Sünnətə hazırlanma yaşı

Mübahisəli məsələ olsa da, ümumi qəbul edilən fikir ondan ibarətdir ki, bunu iki yaşından əvvəl və ya altı yaşından sonra etmək lazımdır. Bu yaşlar arasında olan uşaqların xüsusilə psixoloji cəhətdən mənfi təsirləndiyi və bunun valideynlərinin onlara verdiyi bir cəza olduğunu düşündükləri irəli sürülür.

Tətbiq edilən ağrı kəsici üsullar (penis bloku və ya kaudal blok kimi) sayəsində qısa müddətli (15-20 dəqiqə) və sona doğru sətḣiləşən anesteziya tətbiq edilir. Ümumi anesteziya həm uşağı psixoloji cəhətdən qoruyacaq, həm də sağalma müddətini qısaldacaq.

Sünnət əməliyyatından sonra sağalma prosesi uşağın nə vaxt sünnət edildiyinə görə dəyişir.

Lokal anesteziyada hansı şəraitdə və yaşından asılı olmayaraq, uşaq cinsiyyət orqanına vurulacaq iynə ilə əlaqədar böyük qorxu və çaxnaşma yaşayır. Bu anlar uşaq tərəfindən bütün həyatı boyu qorxu ilə xatırlanır.

## Fəsadlar və zərərlər

Sünnət zamanı çox və ya çox az dəri buraxma, pis çapıq toxuması qalma, qanaxma, deformasiyalar, sidik yollarının zədələnməsi, infeksiya kimi qalıcı əlilliklər qarşılaşa biləcək problemlər arasındadır.

## Uşaq necə hazırlaşmalıdır?

Sünnət olunma qərarı anlayacaq yaşda olan uşaqlarla birlikdə verilməlidir. Mövzu, ətrafdan və dostlardan bu mövzuda yanlış məlumatlandırılmadan, uşağın anlaya biləcəyi sadə şəkildə izah edilməlidir.

Uşaq əməliyyatdan əvvəl müvafiq həkim tərəfindən müayinə olunmalıdır. Bu sayədə əməliyyat zamanı qarşılaşa biləcək sürprizlərdən (anadangəlmə sünnət-hipospadiya kimi) qarşısı alınacaq və lazımi qan analizləri istəniləcək, uşaq və ailə əməliyyatla bağlı təfərrüatları birinci əldən öyrənmək imkanı əldə edəcək.

## Xəbərdarlıqlar

Xalq arasında anadangəlmə sünnət və ya peyğəmbər sünnəti olaraq bilinən hipospadias varlığında sünnət əsla edilməməlidir.



Çünki bu xəstələrdə sidik dəliyi olması lazım olan yerdə deyil. Bu vəziyyət əməliyyatla düzəldilməlidir. Cərrahi əməliyyatlarda sünnət dərisindən istifadə olunur.

Əgər ailədə qan xəstəliyi və ya qanaxma xəstəliyi varsa, uşağın heç bir şikayəti olmasa belə, həkimə müraciət etmədən sünnət edilməməlidir.

Yıxılma və ya diş çəkildikdən sonra uzun müddət qanaxma olan, iynə və ya zərbədən sonra böyük şişlik və göyərmələr olan, zaman zaman spontan diş əti və ya burun qanaması olan uşaqlar qan analizləri aparıldıqdan sonra sünnət edilməlidir.

Ailədəki xroniki xəstəliklər, əvvəlki əhəmiyyətli xəstəliklər və əməliyyatlar da müdaxiləni həyata keçirəcək həkim tərəfindən bilinməlidir. Problemi olan xəstələrdə sünnətdən əvvəl lazımi tədbirlər görülərək təhlükəli vəziyyətlərin qarşısı alına bilər.

Qeyd etmək lazımdır ki, hər bir cərrahi əməliyyat fiziki travmadır və fiziki travmaların da psixoloji əks-sədaları olacağı aydındır. Sünnət prosedurunu həyata keçirərkən tibb mənfi fiziki və psixoloji təsirləri minimuma endirməyi hədəfləyir. Tibbi zərurəti bir kənara qoysaq, ölkəmizdə adət-ənənə və dini zərurət olaraq həyata keçirilən sünnət mərasiminin uşağa ən uyğun vaxtda və ən az zərərlə icra olunması məqsədi doğru yanaşmadır. Sünnətin dini ayin, yoxsa mövhumat olması ilə bağlı mübahisələr tibb sahəsindən kənardadır. Min illərdir davam edən bir ənənə və



ya dini tələb olduğu üçün həkimlər onu ən doğru şəkildə və uşaq üçün ən az travma ilə həll etməyi hədəfləməlidirlər.

Psixoloji nöqteyi-nəzərdən "Sünnət travması" anlayışının tətbiqi Ziqmund Freydin Kastrasiya Qorxu Teoreminə əsaslanır. Bu teorem belə bir nəticəyə əsaslanır ki, 2-6 yaş arası uşaqların cinsi şəxsiyyətini qazandıqları dövrdür və buna Fallik Dövr deyilir, sünnətlə penisinin kəsilməsi qorxusu (kastrasiya dedikdə onun kəsilməsi nəzərdə tutulur. cinsiyyət orqanının kökündən çıxarılması) uşaqda travmaya səbəb olacaq..

Sünnət üçün yaxşı motivasiya olan uşaqlarda qorxu azdır. Buna baxmayaraq araşdırmalar göstərir ki, "sünnət qorxusu" 2-6 yaş arasında olanlardan fərqli olaraq, xüsusilə yaşı çox olan və 6 yaşdan yuxarı uşaqlarda daha çox müşahidə olunur. Çox vaxt sünnət qorxusunun səbəbi sünnət zamanı "iynə qorxusu" və ya "ağrı hiss etmə narahatlığı", yəni penisin ağrıyacağı narahatlığıdır.

Türk mütəxəssislərin şəxsi müşahidələridir ki, artıq çəkili və kök uşaqlarda da sünnətdən əvvəl daha çox qorxu var.

***Ayşən Vəli***

# Böyük Qayıdış: AZAD LAÇIN!

## Prezident İlham Əliyev: "Güllə atmadan biz Laçın rayonunu qaytardıq"




Azərbaycanın əzəli, tarixi torpaqları bu gün işğaldan azad olunub. Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Eləcə də iki il əvvəl düşmən işğalından azad olunan Laçınımızda. Etiraf etməliyik ki, son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən üç il ötsə də hərb tarixində yeni səhifə açmış 44 günlük Vətən müharibəsindən ölkəmizdə, eləcə də dünya ölkələrində hələ də danışılır. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Xalq-Dövlət-Ordu birliyinin ən yüksək səviyyədə olduğunu bütün dünya gördü. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində "Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü", - deyən Prezident bildirib ki, bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi: "Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri hələ uzun müddət təhlil ediləcəkdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yürütdüyü güclü daxili və xarici siyasət, Preazident kimi fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni şərtləndirən başlıca amillər sırasındadır.

### "BAXIN, GÖRÜN BİZİM HƏM HƏRBİ, HƏM SİYASİ MÜSTƏVİDƏ NƏ QƏDƏR BÖYÜK UĞURLARIMIZ VAR"



Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin 2020-ci ilin noyabrın 10-da imzaladıqları birgə Bəyanata uyğun olaraq, Ermənistan tərəfindən ərazilərin boşaldılması qrafik üzrə həyata keçirilib. Həmin qrafikə əsasən, dekabrın 1-də Laçın rayonu da erməni işğalından azad edildi. Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikasının baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil oldu. Bildiyimiz kimi, Ermənistan tərəfindən Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir, - deyən Prezident vurğulayıb ki, biz 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq: "Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var".

Laçının işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqları yerlərə göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. " hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq" - deyə Azərbaycan Prezidenti qeyd edib.

### PLANETİMİZİN AĞ CİYƏRİ

Xatırladaq ki, Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, əmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə zəngin olan bir diyardır. Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşən Laçın şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayon respublikamızın təbii sərvətlərilə zəngin guşələrindəndir.



MƏTANƏT

## Haqq yerini tapdı, qadınlar da haqlarına çatdı

**Bəlkə də dünya binə olandan qadınlara da onların əks cinsinə baxıldığı kimi baxılsaydı, heç ayrı-ayrı zamanlarda qadın hüquqları, haqları və qadınların müdafiəsi ilə bağlı digər günlərin yaranmasına, təsis olmasına ehtiyac da qalmazdı. Lakin bu, bizim istəyimizdən asılı olmayaraq heç də belə olmayıb.**

Nədənsə hər ikisi yer üzərinə Allah tərəfindən bəxş olunan, hər ikisini də ana dünyaya gətirən, hər ikisinin iki valideyninin olması şərt olan qadın və kişi arasında zamanın bütün mərhələlərində fərq olub. Onlar arasına ayrı-seçkilik qoyulub. Qadın uşaq saxlamalı, evin işlərini görməli, susmalı, istəyini bildirməməli, işləməməli, insanlar arasında görünməməli və sair kimi qadağalar bineyi-qədimdən onların hüquqlarını pozan amillər arasında olub. Lakin bütün bunların heç biri kişilərə şamil edilməyib.

Maraqlıdır, görəsən dünyanın ən başlanğıcında qadınlarla kişilər arasındakı bu ayrı-seçkiliyin müəllifi kim olub? Kimin ağlına bu fikirlər gəlib. Bunlar nədən qaynaqlanıb? Nə üçün iki insan bir evdə bu qədər fərqli şəkildə yaşayıb. Nə üçün iki cinsin nümayəndələri cəmiyyətdə bu qədər ayrı-seçkiliyə məruz qalıb?

Bütün bunları təqvimdə 5 dekabr - Dünya Qadın Haqları Gününü görərkən düşünürəm. Və düşünməmək də mümkün deyil. 5 dekabr Türkiyədə 1934-cü il dekabrın 5-də Mustafa Kamal Atatürk tərəfindən qadınlara seçmə və seçilmə haqqı verilib. O tarixdən bəri bu xüsusi gün Türkiyə və dünyada Dünya Qadın Haqları Günü kimi qeyd edilir. Türkiyə dünyada qadınlara ən erkən seçmə və seçilmə haqqı verən ölkələr arasında yer alır. Daha sonra isə digər ölkələrdə də müxtəlif vaxtlarda qadınlara seçmək və seçilmək hüququ verilib.

Maraqlıdır, bəs həmin tarixə qədər qadın nə üçün seçə və seçilə bilməzdi? Nə üçün bunları kişilər edə bilərdi, lakin qadınlar yox? Saymaqla bitməyən qadın hüquq və azadlıqlarını böyük qürur və sevinclə qarşıladığımız günümüzdə həm də onu düşünürəm ki, bütün dünya əsrlərlə qadınların qarşısında bir günah yaşayıb.

Əgər bu gün qadın seçə və seçilə, yüksək vəzifələrdə işinin öhdəsindən gələ bilirsə, deputat kimi fəaliyyət göstərirsə, müəllim, həkim, jurnalist. mühəndis və sair yüzlərlə sənətin sahibinə çevrilə bilirsə, çox vaxt da öz işini kişilərdən dəfələrlə yaxşı icra etməyi bacarırsa, bu, yüzilliklər öncə mümkün deyildimi?

Mümkün idi. Tarixə nəzər salarkən çoxsaylı ağıllı, qəhrəman qadınlarla rastlaşırıq. O qadınlar ki, kişilər həmişə onların ağlından, məsləhətindən istifadə ediblər. Qadınlar müdrikliyi, savadı, biliyi ilə evdə övladlarını sabahın ən öndə olan adamlarına çeviriblər. Səslərini çıxara bilməsələr də, adam içərisinə çıxmağa izinləri olmasa da, bəzi hallarda üzləri belə görünməsə, bəzi hallarda başlarını yuxarı qaldırmağa qorxsalar da, onlar hər zaman evlərinin xanımı olublar. Həm evin saysız işini zərif çiyinlərinə götürüblər, həm də övlad yetişdirmək işini.

Beləliklə, cəmiyyətin hər zaman aralarına ayrı-seçkilik qoyduğu kişiləri həmin qadınlar dünyaya gətirib, tərbiyə ediblər. Lakin nədənsə biri hər zaman öndə olub, digəri çox arxada.

Şükürlər olsun, bu günlərə. Yaxşı ki, haqq yerini tapdı, qadınlar da haqlarına çatdı. Dünyadan öz dünyamıza-ölkəmizə qayıdırıq və qürurla deyirik ki, 1918-ci ildən -artıq 100 ildən çoxdur ki, qadınlara kişilərlə eyni hüquqlar verilib. İndi ölkəmizdə qadınlar seçə-seçilə, ən yüksək vəzifələrdə çalışa bilir. Nə gözəldir qadınları və haqları olanlarla birgə görmək. Çünki bütün hüquq və azadlıqlar qadınların da hüququdur.

Ərazisində dünyada nadir ağac növlərindən hesab olunan qırmızı dəmirağac meşələri, çox sayda mineral su bulaqları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, cürbəcür dərman bitkiləri vardır. Laçın abidələri hələ eramızdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə ediləbiləcək qədər dəyərli və nadir abidələrdəndirlər. Buranın təbiəti isə xüsusilə füsünkardır. Dövlət başçısının vurğuladığı kimi, Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir: "Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda, işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".



## "XALQIMIZI TƏHLÜKƏSİZ VƏ XOŞBƏXT HƏYAT GÖZLƏYİR"

Azərbaycanın əzəli, tarixi torpaqları işğaldan azad olunub. "Bizim ölkəmiz üçün yeni dövr başlayır", deyən dövlət başçısı artıq ölkəmizdə yeni dövrün başlandığını bildirmişdi: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

İllər öncə yurd-yuvasından didərgin düşənlər bu gün sönmüş çıraqlarını yandırıb, yeni həyata başlayırlar. Bu həyat acı keçmişi arxada qoyub xoşbəxt bir dünyaya səsləyir insanları. Köç karvanları nisgilli, kədərli bir ömür yaşamış insanları əzəli torpaqlarına çatdırır. Bu karvanlar bizi Zəngilan, Füzuli kimi Laçına aparır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan ərazilərə köçlər davam edir. Yenidən çiçəklənən ərazilərimiz doğma sakinlərini qarşılamağa davam edir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

## ABADLIQ VƏ QURUCULUQ MEYDANI

Noyabrın 29-da növbəti köç karvanı ilə Laçına çatan ailələrə evlərinin açarları təqdim olunub. Laçın şəhəri daha 17 ailəyə qucaq açdı və daha 63 nəfərin yurd həsrəti bitmiş oldu. Laçına köçən ailələr Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkün ailələrindən ibarət olub. Böyük Qayıdış proqramı çərçivəsində 31 ildən sonra yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurduna qovuşub. Onlar şəhərdə böyük coşqu ilə qarşılanıblar.Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər əzəli yurdda rahat nəfəs alırlar. Artıq Laçın şəhərində 363 ailə, yeni 1389 nəfərin daimi məskunlaşması təmin edilib.Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

Laçının Zabux kəndi də bu sevinci yaşadı. İlk mərhələdə 88 nəfərdən ibarət 20 ailə Zabuxa köç etdi. Bakıdan, Lökbatandan Zabuxa yol alan karvan məcburi köçkünləri neçə ilin həsrətindən sonra el-obası ilə görüşdülər. Ailə tərkibinə uyğun olaraq, onlardan 4-ü ikiotaqlı, 4-ü üçotaqlı, 8-i dördotaqlı, 4-ü beşotaqlı mənzillə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar. Qeyd edək ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib. Əlbəttə ki, Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsidir. İşğaldan azad olunduqdan dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə bütün Qarabağ və Şərqi Zəngəzur kimi, Laçında da nəhəng bərpa və yenidənqurma işlərinə başlanılıb. Baş plana əsasən, şəhərdə ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur. Laçında indiyədək bir sıra infrastruktur layihələri icra edilib. Şəhər ərazisində 7 park salınır ki, onların da artıq ikisində işlər tamamlanıb. İdman kompleksi və Həkəri çayının ətrafında çimərlik-istirahət mərkəzi salınır. Eyni zamanda, yollar relyefə uyğun olaraq genişləndirilib, işıqlandırma işləri görülüb. Şəhərin işıqlandırılması müasir modelə tam uyğunlaşdırılıb. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. İşğaldan azad olunmuş ərazilərimizin inkişafını daim xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev Laçın rayonuna səfərləri zamanı dövlətimizin başçısı Güləbird Su Elektrik Stansiyasının, "Qorçu" və "Laçın" şəhər yarımstansiyalarının, Laçın şəhərində 1 Dekabr, Heydər Əliyev, Zəfər və 28 May, Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişməsindəki lövhələrin açılışını edib, Laçın Beynəlxalq Hava Limanının, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin, 110/35/10 kV-luq "Laçın" Qovşaq Yarımstansiyasının, Qorçu qəsəbəsinin və Şəlvə kəndinin, Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoyub, rayonda həyata keçirilən layihələrin, aparılan quruculuq işlərinin gedişi ilə tanış olub. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Laçın şəhərində əhalinin istirahətinin səmərəli təşkili istiqamətində də tədbirlər həyata keçirilir. Şəhərin giriş hissəsindəki körpünün sol istiqamətində salınan çaykənarı bulvar Laçın sakinlərinin və bura gələn qonaqların sevimli istirahət məkanlarından olacaq. Artıq Həkəri çayında astana və göl yaradılıb. Gölün üzərində asma körpü inşa edilib, ətrafında yaşıllıqlar salınıb, kotteclər tikilib.

## "SİZ UZUN ƏZABLI İLLƏRDƏN SONRA BURADA RAHAT YAŞAYASINIZ"

Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Gördüm ki, son vaxtlar ümidlər bir az sengiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız".

31 ildən sonra yenidən doğma kəndinə qədəm qoyan ailələr həsrətini çəkdikləri kəndin gözəl mənzərəsi ilə tanış olublar. Vətən müharibəsində qazandığımız Zəfərdən üç il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar.

Artıq Laçın yenidən qurulur. Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Görülən və görüləcək işlər böyük quruculuq, abadlıq işləridir. Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı layihələrin reallaşmasına imkan verir. 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir.

Bu gün Laçınımız abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli sakinlərin bu torpaqda rahat, firavan yaşamasına istiqamətlənib.

***Nəzakət ƏLƏDDİNQIZI***




## "Qələbələr, paradlar unudulan deyil, tarixə qızıl hərflərlə yazılıb"

*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*



"10 dekabr 2020-ci ildə keçirilən Zəfər Paradını xalqımız uzun illər xatırlayacaq, çünki torpaqlarımızın işğaldan azad olunmasının qeyd edilməsi və Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti cənab İlham Əliyevin keçirdiyi bu parad qürurverici olduğu qədər də möhtəşəm idi". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri vurğulayıb ki, düşmən üzərində tarixi qələbədən sonra əsgər və zabitlərimiz böyük qürur hissi ilə, mətanətlə, iri addımlarla addımlayırdılar və bu addımlar sanki bizə deyirdi ki, Azərbaycanın suverenliyinin tam bərpa olunması uzaqda deyil, az bir müddətdən sonra Azərbaycan Ordusu, igid oğlanlarımız Xankəndini, Xocalını, Ağdərəni düşməndən tamamilə azad edəcək, Qarabağ torpağında separatizmə son qoyacaqdır.

"Əlbəttə ki, paradı seyr edən hər bir kəsin, Azərbaycan Respublikasının Prezidentinə, qardaş Türkiyə Prezidentinə böyük etiramını, hörmətini ifadə edənlərin hər birinin qəlbində gələcəyə böyük ümid qığılcımları parlayırdı. Bu, təbiidir, çünki 2020-ci ilin sentyabrında qazanılan qələbə ordumuzun müzəffər yürüşü, 44 günlük müharibə və bu dövrdə ordumuzun qüdrəti, Ali Baş Komandanın cəsarəti deməyə əsas verirdi ki, o torpaqlarda yağı qala bilməz, Qarabağ torpağı düşmənə yurd-yuva ola bilməz və belə də oldu.

Bu gün bizim hər birimiz 10 dekabr 2020-ci ilin o möhtəşəm günlərini xatırlayarkən bir daha şəhidlərimizi yad edirik, onların ruhuna dualar oxuyuruq, müharibədə fiziki sağlamlığını itirən qazilərə can sağlığı arzulayırıq. 44 günlük müharibə və müharibədə qazanılan qələbə bütün dünyaya sübut etdi ki, Azərbaycan Prezidentinin yürütdüyü siyasət sülhə, əmin-amanlığa söykənir, beynəlxalq normalara əsaslanır və Azərbaycan xalqı mübarizdir, öz torpaqlarını qorumağa, düşməni məhv etməyə qadirdir. Həmin paradın notları sonradan Xankəndində təkrarlandı və Azəbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev 8 noyabr tarixində Xankəndidə Azərbaycan bayrağını ucaltdı və biz ikinci möhtəşəm paradın şahidi olduq. Əlbəttə, bu Azərbaycanın böyük qələbəsi idi. Azərbaycan Prezidenti, Azərbaycan Ordusu, Azərbaycan xalqı dünyaya yeni bir mesaj verirdi və bildirirdi ki, Azərbaycanla diqtə ilə, təhdid dili ilə danışmaq olmaz. Bu xalqın iradəsini qırmaq olmaz, çünki o haqq, ədalət uğrunda mübarizə aparır, torpaqlarını qoruyur, sərhədlərini möhkəmləndirir.

Sözsüz ki, hər iki parad unudulmaz bir tarixdir. Gələcək nəsillər bu tarixi vərəqləyəcək və Azərbaycan Prezidentinin, Azərbaycan Ordusunun, xalqımızın zəfər yürüşlərini, qələbələrini yad etdikcə, öyrəndikcə, gələcəyimiz uğrunda mübarizədə daha mətin addımlarla irəliləyəcəklər. Bu zəfər bizim qəlbimizdə əbədi yurd salıb. O paradlar, o qələbələr heç zaman unudulan deyil və Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılıb", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# “UNESCO-dakı idarəedici orqanlar Fransanın təsiri altındadır”

“Beynəlxalq təşkilatlarda son illərin ən geniş yayılmış tendensiyalarından biri də faktiki və potensial maraqların toqquşmasıdır. Bu zaman hər hansı bir hərəkət və ya hərəkətsizliyə görə təşkilatın rəhbərliyi xidməti vəzifələrini və öhdəliklərini yerinə yetirərkən qurumun fəaliyyəti dürüstlük, müstəqillik və qərəzsizlik tələbləri ilə ziddiyyət təşkil edir”. Bunu SİA-ya açıqlamasında politoloq Yeganə Hacıyeva bildirib.Politoloqun sözlərinə görə, BMT-nin bütün təsisatlarında təşkilatın Nizamnaməsinin 29-cu bəndinə görə qurumun heç bir rəhbəri lobbiçilik fəaliyyəti ilə məşğul olmamalıdır: ”Həmçinin onların üzv ölkələrdən şübhəli əsaslarda dəstək istəmələri qətiyyən qəbuledilməzdir. Qəribədir ki, BMT-yə daxil olan qurumların nizamnamələrində əksini tapmış şərtlərin UNESCO-ya və onun fransız dövlətinin təsiri altında formalaşan rəhbərliyinə aidiyyəti yoxdur. Son illər ard-arda UNESCO-nun fransalı Baş direktoru Odri Azulenin maliyyə maxinasiyaları haqqında istər beynəlxalq KİV-lərdə, istərsə də Azərbaycan mediasında kifayət qədər ciddi məlumatların əks olunduğu yazılar yer alıb. Yazıların birində isə Odri Azulenin üzv dövlətlərin İcraiyyə Şurasına seçimlərinə təsir etmək üçün təşkil etdiyi siyasi hiylələr barədə ətraflı məlumatlar var.Y.Hacıyeva bildirib ki, Baş direktor Odri Azule seçiləndən bəri UNESCO-nun nizamnaməsinə, eləcə də mandatına məhəl qoymadan fəaliyyət göstərməsi adi hal alıb: ”Xatırladım ki, keçən il O.Azulenin yanlış idarəçiliyi, üzv dövlətlərin ayırdığı vəsaitlərindən şəxsi maraqları üçün sui-istifadəsi, nizamnamə qaydalarına hörmətsizliyi, Fransanın milli hakimiyyət orqanlarından gələn sifarişləri qeydşərtsiz həyata keçirməsi səbəbindən onun kənarlaşdırılması üçün mövcud mexanizmlərin işə salınması cəhdləri həyata keçirildi. Nəticədə isə Baş direktora gələcəkdə UNESCO-nu Fransanın alt təşkilatı kimi idarə edəcəyi halda ciddi intizam cəzasına məruz qalacağı ilə bağlı xəbərdarlıq edildi. Ümumiyyətlə, Fransanın öz nümayəndələrini yerləşdirməklə BMT təsisatlarını ələ keçirməsi təcrübəsinin tarixi qədimdir. Nümunə üçün qeyd edim ki, hələ bu haqda 2000-ci illərdə ”The Guardian” faktoloji araşdırma paylaşmışdı. Nəşrin əldə etdiyi özəl sənədlər göstərir ki, iki fransız nazir UNESCO-nun katibliyinə birbaşa müdaxilə edərək keçmiş prezidentin köməkçilərinə Parisdə yerləşən BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatında rahat şəkildə yüksək vəzifələr verilməsini təmin ediblər. ”The Guardian”ın dərc etdiyi sənədlərdə göstərilir ki, bütün bunlar adı səmərəsizlik, dostluq və korrupsiya ilə sinonimləşən UNESCO-nun üzvlüyündən vaxtilə Birləşmiş Ştatların və Böyük Britaniyanın çıxmasına səbəb olmuşdu”.

Politoloq qeyd edib ki, BMT-nin daxili audit yoxlanışı UNESCO-da kütləvi maliyyə israfı 544 milyon dollarlıq (340 milyon funt sterlinq) yeyinti ittihamı olan hesabatın tərtibatı ilə nəticələndi: ”Audit hesabatında, həmçinin UNESCO-nun dünya üzrə vergiödəyicilərinin və alıcılarının pulları müqabilində nə əldə etdiklərini görmək üçün proqramları qiymətləndirə bilmədiyi müəyyən olunub. UNESCO-dakı idarəedici orqanlar müstəqil şəkildə idarə etmək əvəzinə uzun illərdir Fransanın təsiri altındadır. Bu vəziyyət son günlərdə daha da pisləşib. Təsəvvür edin ki, O.Azule heç bir səlahiyyəti olmadan suveren üzv dövlətlərin UNESCO-da nümayəndə təkliflərinə və seçkilərinə veto hüququ tətbiq edir. Bu, əslində ciddi narahatlıq doğuran məsələdir, çünki xanım Odri Azulenin mövcud qaydalara və təcrübələrə əməl etməməsi qurumun etikasını təhlükə altına alır. Bu da Azulenin mandatı altında ədalətli və demokratik seçki prosesinin bütövlüyünə üzv dövlətlərin inamını sarsıdıb”.Müsahibimiz Rəsmi Bakının dəfələrlə UNESCO-nu Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər etməyə və erməni işğalçılarının Azərbaycanın milli, dini və mədəni bəşəri dəyərlərinə qarşı vandallığın miqyasını dəyərləndirməyə dəvət etdiyini vurğulayıb: ”Son üç il ərzində UNESCO müxtəlif izahlarla öz missiyasını Qarabağa göndərməkdən imtina edib, işğaldan azad edilmiş ərazilərimizdəki vandalizmin miqyasını sənədləşdirməkdən yayınıb. İşğaldan azad etdiyimiz ərazilərdəki bütün şəhərlər, qəsəbələr, kəndlər, mülki infrastruktur, qədim abidələr, məscidlər, qəbiristanlıqlar, ümumilikdə isə azərbaycanlıların bütün bəşəri və mədəni irsi ermənilər tərəfindən tamamilə dağıdılıb”.

Y.Hacıyeva sonda bildirib ki, dünyanın aparıcı KİV-lərinin müxbirləri və xarici diplomatik departamentlərin nümayəndələri Ağdam şəhərini ”Qafqazın Xirosiması” adlandırırdılar: ”Dağıntıların miqyasından başqa arealı və strukturu da onu göstərir ki, dağıntılar döyüşlərin və ya bombardmanların nəticəsi deyil, Azərbaycana və azərbaycanlılara qarşı erməni vandalizminin nifrət ifadəsidir. Bu dağıntıları görmək istəməyən UNESCO Baş direktorunun mədəniyyət işləri üzrə müavini Ernesto Ottone Bakını həm də müşahidə missiyasının regiona səfərinə mane olmaqda ittiham edir. Son günlər isə UNESCO həm də Qarabağda işğal illərində separatizmin ideoloji dayaqları qismində təbliğat elementləri üçün inşa edilmiş tikililərin müdafiəsini təşkil etmək təşəbbüsləri irəli sürür. Tarixi cəmi 20-25 il olan tikililər hansı bəşəri dəyərlərin daşıyıcısı olması isə ayrı bir mövzudur. Ancaq bu, həm də İkinci Dünya müharibəsindən sonra Almaniyanın işğal etdiyi ərazilərdə faşist ideologiyasının təbliğatı üçün ucaltdığı tikililərin müdafiə olunması anlamına gəlir”.

***Rəşid Qarayev***



Elçin Bayramlı

# Bakının həllolunmaz problemi: nə etməli?

**Bakının sərnişin-nəqliyyat sistemindəki problemlər uzun illərdir həllini tapmır. Son illərdə yüzlərlə yeni avtobus alınsa da, problem gündən-günə kəskinləşir. Çünki avtobusların hərəkətinin idarə olunması normal vəziyyətdə deyil. Bu sahədə vəziyyəti tənzimləmək üçün ”Nəqliyyatın intellektual idarəetmə sistemi” yaradılsa da, faydalı olmadı.**

Son illərdə Bakıda marşrut xətlərinin sayı kəskin şəkildə azaldılıb. Bir çox marşrut xətləri ləğv edilib. Bəzilərinin gediş məsafəsi qısaldılıb. İndi sərnişinlər şəhərin bir yerindən başqa bir yerinə getmək üçün 2-3 müxtəlif marşrutdan istifadə etmək məcburiyyətində qalırlar.

Məsələn, Sahil metrosundan Amay ticarət mərkəzinə getmək üçün 2 marşrut dəyişmək lazım gəlir. Halbuki, hər iki obyekt şəhərin mərkəzi hissəsində və cəmi 2 kilometr məsafədə yerləşir. Paytaxtın elə yerləri var ki, oradan digər bir yerinə getmək üçün 3 marşrut dəyişməlisən.

Dünən əməkdaşımız Bayıldan Heydər Əliyev prospektində yerləşən stadionun yanına getmək üçün E1 marşrutuna minib. Əvvəllər böyük avtobuslarla işləyən, lakin son vaxtlar kiçik avtobuslara keçirilən və ağzınadək dolu hərəkət edən bu avtobus Heydər Əliyev prospektinin başından orta ana yola daxil olub və düz Koroğlu metrosunadək sürətli yolla dayanmaq imkanı olmadan hərəkət edib. Əməkdaşımız 3 km yolu piyada geri qayıtmalı olub. Bu necə məntiqdir? Şəhərdaxili avtobus marşrutu sürətli yolda nə gəzir? Bəlkə halı pisləşən və qəfil düşmək istəyən var, harada dayanacaqsan? Ekspres marşrut o demək deyil ki 10-15 km-lik yolda dayanmayasan? Bu şəhərlərarası reys deyil ki, şəhərdaxili marşrutdur.

Bəzi istiqamətlərdə avtobusların intervalı çoxdur. Xəttə buraxılan avtobuslar da azdır. Ona görə, sərnişinlər sıx dolu avtobuslarda gedirlər. Belə çıxır ki, bu vəziyyət sərnişindaşıma şirkətlərinin mümkün qədər çox gəlir əldə etməsi üçün yaradılıb. Məsələn, 100 şərti sərnişini 2 avtobusla daşımaq yerinə, 1 avtobusla daşımaq, yanacağa qənaət etmək, xəttə daha az avtobus çıxarmaq daha çox gəlir deməkdir.

İnsanlar bir neçə marşrut dəyişərək saatlarla şəhərdə hərəkət etməkdən bezir. Ona görə də, çoxları taksiyə üz tutmağa məcbur olurlar. Yolüstü taksilər, özəl şirkət taksiləri həm vətəndaşların xərclərini artırır, həm də şəhərdə avtomobil sayını artırır. Nəticədə tıxac yaranır. Yəni, tıxacların yaranmasında əsas səbəb 1 avtobusla gedə biləcək 50-60 nəfərin azı 20-30 avtomobildən istifadə etməsidir.

Dünyanın bütün şəhərlərində yerüstü nəqliyyatın müxtəlif formaları var-tramvay, trolleybus, metrobus, şəhərətrafı elektirik qatarları və s. Bizdə isə avtobuslardan başqa, heç bir yerüstü ictimai nəqliyyat növü yoxdur. Yaxşı ki, metro var- gün ərzində 1 milyona yaxın sərnişin daşıyır, yoxsa şəhər sərnişindaşınma sistemində yaranacaq acınacaqlı vəziyyəti təsəvvür belə etmək olmazdı. Lakin yerüstü sərnişin nəqliyyatının bərbad vəziyyətdə olmasım metronun da yükünü dəfələrlə artırıb və artıq perronlarda dayanmağa yer yoxdur, vaqonlara minmək isə mümkün deyil.

Şəhər həyatının, iqtisadiyyatının canı, arteriyası şəhərin sərnişin nəqliyyatıdır. Marşrut avtobusları sosial sistemdir. Biznes layihəsi deyil. Burada əsas məqsəd gəlir əldə etmək olmamalıdır. Marşrut xəttlərinin sayı artırılmalıdır.

Bakı Nəqliyyat Agentliyinə böyük vəsaitlər ayrılır, şərait yaradılır. Lakin BNA illərdir şəhərin nəqliyyat sistemini tənzimləyə bilmir. Bütün bu problemlər ”bazar” yanaşmasından və BNA-nın qeyri-peşəkarlığı səbəbindən əmələ gəlir. Prinsiplər aydınlaşdırılmalıdır ki, məqsəd pul qazanmaqdır, yoxsa normal sərnişin nəqliyyatı sistemini təşkil etməkdir. Mərkəzdə əsasən yeni gətirilən müasir avtobuslar işləsə də, şəhərdənkənar ərazilərin böyük əksəriyyətində köhnə, narahat avtobuslarla sərnişin daşınır. Mütamadi olaraq gediş qiymətləri artsa da , xidmətin keyfiyyəti artmır.

Mən təklif edirəm ki, sərnişindaşıma tamamilə dövləti balansına keçsin. Ən pis halda bələdiyyəyə verilsin. Yeganə məqsədi daha çox pul qazanmaq olan özəl şirkətlər bu sistemdən uzaqlaşdırılmalıdır. Sərnişindaşıma sistemi strateji sahə olduğundan əksər ölkələrdə bu sistem dövlətin və ya bələdiyyənin balansında olur. Bizdə də belə olması daha yaxşı olar.

# ”Məktəb leksikonundan “Fond pulu” sözü çıxarılmalıdır”

*EKSPERT*



“Məktəb leksikonunda, məktəb lügətində, məktəbşünaslıq terminlərindən fond pulu kimi detallar çıxarılmalıdır. İndi guya bunu yeni adla ianə fondu adlandırırlar. Birdəfəlik məktəb anlayışı ilə fond pulu anlayışının uyğun gəlmədiyi diqqətə çatdırılmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri deyib. Elmin Nuri sözlərinə belə davam edib: ”Uzun illərdir ki, biz bu məsələni müzakirə edirik, məktəblərdə yarı az, yarı çox fond söhbətləri bitmək bilmir və bu neqativ hal kimi göstərilir. Bu günlərdə bu səbəblərdən məktəb direktorları cəzalandırılıb. Bu gün məktəb bir təfəkkür ocağı, bir sosiallaşma mühiti, tədris mühiti kimi öz nüfuzunu onsuz da itirib. Cəmiyyətimizin reallığı ilə barışmaq lazımdır. Məktəb tədrisverən qurumdan çox, ali məktəblərə uşaq hazırlaşdıran, repetitorlara uduzan bir qurumdur. Təəssüf ki, məktəbin mahiyyəti belə olmamalıdır.

Məktəbi nüfuzdan salan tək bu deyil. Məktəbi nüfuzdan salan məsələlərdən biri də məhz bu kimi detallardır: Fond pulu və ianə fondu yığışdırılmalıdır. Dövlət məktəbləri bu gün dövlət tərəfindən maliyyəşən rəsmi qurumlardır. Dövlət şagirdlərin xüsusi təhsil alması üçün müəllimlərə maaş ödəyir. İnzibatçılara maaş ödəyir. Artıq bu kimi detallar, müəyyən məsələlər yerli yatağında öz həllini tapmalıdır.

Pul amilinin olduğu bir yerdə, demirəm bu həmişə qeyri-şəffaf yollarla yığılır. Elə olur ki, doğrundan da, real qaydalarla, lazımi əsaslarla pul yığılır və vacib məsələlərə xərclənir. Buna sözümüz yoxdur, bunun tərəfdarı deyilik, çünki bu yalnız istisna nümunələrdir. Biz bu fond pulu anlayışını unutmalıyıq. Məsələnin sosial tərəfindən çox, təfəkkür tərəfi məni maraqlandırır. Bu yanaşmanı artıq özümüzdən uzaqlaşdırmalıyıq. Yanaşmanı uzaqlaşdırsaq, məsələ sosial tərəfdən də öz həllini tapacaq. Bu gün valideyn öz təfəkküründə fond pulu anlayışını qəbul etməməlidir. Fərqi yoxdur, onun maddi imkanı var, ya yoxdur. Bu gün müəllim, direktor öz təfəkküründə fond pulu anlayışını qəbul etməməlidir. Psixoloji olaraq qəbul etməmək məsələni öz axarına gətirib çıxaracaq”.

***Ayşən Vəli***

# Sosial şəbəkələrdə tanışlıq evlilik ənənələrinə zərər vurur?

## *EKSPERT MÜNASİBƏT BİLDİRDİ*



"Azərbaycanda da dünyada olduğu kimi internet və sosial şəbəkələr həyatımızın bütün sahələrinə daxil olduğu kimi həm də özəl, mərhəm tərəflərimizə də təsir etməyə başlayıb. Bu baxımdan sosial şəbəkələr vasitəsilə tanışlıq, dostluq, tərəfdaşlıq etmək və bu yöndə özünə uyğun insan, peşəkar sevgili tapmaq yeni trendə çevrilib. Fərq etməz real həyatda, yaxud sosial şəbəkələr vasitəsilə gənclər, hətta yaşlı nəslin nümayəndələri bir-birini bəyənirsə, mütləq 6 ay, 1 il ərzində bu münasibəti aydınlaşdırmaq üçün tanışlıq müddəti seçməlidirlər.



Əgər sosial şəbəkədə tanış olub 5 dəqiqədən sonra evlilik təklifi verib, 1 gündən sonra toy edib, 3 gündən sonra ayrılacaqsınızsa, bununla siz həm özünüzü, həm doğmalarınızı, həm də əks tərəfi və onun qohumlarını çox pis vəziyyətdə qoymuş olursunuz. Bu, real və sosial həyatda da belədir". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib. Onun sözlərinə görə, belə etməklə bir sosial varlıq olaraq həm öz, həm də qarşı tərəfin imicini məhv etmiş olursunuz: "Ona görə də bu tipli tanışlıq və evlilik bir qədər ehtiyat tələb edir. Baxmayaraq ki, keçmişdə də Azərbaycanda mental dəyərlərimizdə nişanlanma mərasimi var idi. Nişanlı qız və oğlana 6 ay vaxt verilirdi ki, bir-birlərini tanısınlar. Buna misal olaraq "Məşədi İbad" filmindəki adaxlıbazlıq səhnəsini göstərə bilərik.

Nişanlanandan sonra insanların bir-birini tanıması, psixoloji, mənəvi, ruhi və fizioloji olaraq bir-birini həzm etməsi üçün bir müddət seçilirdi. 6 ay və ya 1 il nişanlılıq dönəmində gənclər kiçik evlilik ömrü yaşayırdılar".Ekspert sözlərinə davam edərək bildirib ki,



insan nə qədər artist olsa, öz xasiyyətini gizlətməyə çalışsa da, 1 il ərzində artıq bir çox sirləri açılmış olur: "Qarşı tərəf bilir ki, bu insanla ömürlük, yaxud qısamüddətli münasibətdə ola bilər, ya yox. Qısamüddətli deyəndə nişanlı cütlük artıq bir-birini tanıyandan sonra həm özləri, həm də ailələri bu münasibətlərin uzun ailə həyatına çevrilməsinə qərar verə bilirlər. Bu da ailənin, gələcəkdə bağlanan nikahın möhkəmliyinə dəlalət edir. Son vaxtlar isə bu yöndə çox mənfi hallarla üzləşirik. Real həyatda olduğu kimi, virtual həyatda da tanışlığın müsbət və mənfi tərəfləri var. Statistik cəhətdən hər iki halda eyni nəticələr ola bilir. Getdikcə real həyatdakı mənfiliklər sosial həyatda da özünü göstərir. İnternet vasitəsilə tanış olub evlənənlərin ailə həyatının daha möhkəm olmasının şahidi oluruq. Əgər birinci mərhələdə internet vasitəsilə evlənənlər ayrılırdısa, indi bunu görmürük. Əksinə, hər iki halda münasibətləri aydınlaşdırıb bir-birini tanıyandan sonra evlənənlərin boşanmaya daha az meyilli olduğunu müşahidə edirik. Bu da sevindirici haldır. Hər iki halda tanışlıq gözəldir və insanlar bundan çəkinməməlidir. Amma birinci şərt odur ki, qurulan münasibətlər möhkəm olmalıdır".

***L.Sərraf***

# Avtomobillərin qiyməti yenidən bahalaşacaq?

## *İQTİSADÇI İZAH ETDİ*



"2023-cü ilin mart-aprel aylarından etibarən köhnə avtomobillərin ölkəyə idxalında məhdudlaşdırılma prosesi tətbiq olunmağa başlayıb. Qayda ondan ibarətdir ki, istismar müddəti 10 ili keçmiş avtomobillərin ölkəyə gəlişi qadağan edilir. Növbəti ildən isə 2014 və ondan əvvəlki illərin idxalına məhdudiyyət qoyulacaq. Bu qərardan sonra il ərzində avtomobil bazarında müəyyən dəyişikliklər müşahidə etdik. Ölkəyə gələn avtomobillərin qiymətində artım oldu. Çünki istehsal tarixi köhnə olan yəni, ucuz avtomobillər idxal olunmadı. Son 10 ayın statistikasına nəzər yetirsək, ölkəyə daxil olan avtomobillərin dəyərinin daha yüksək olduğunu görərik". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli deyib.

İqtisadçı sözlərinə davam edərək bildirib ki, təbii ki, köhnə avtomobillərin ölkəyə gəlişinə qoyulan məhdudiyyət avtomobil bazarında qiymətlərə təsir göstərəcək: "Bazara daxil olan avtomobillər baha qiymətə idxal olunduğu üçün baha qiymətə də satılır. Əslində, bu qərar verildikdə dövlətin məqsədi iqtisadi və sosial məsələlər deyil, daha çox ekoloji və təhlükəsizlik məsələləri idi. Qərar bu cür əsaslandırılıb ki, köhnə avtomobillər ətraf-mühiti daha çox çirkləndirir, hərəkət təhlükəsini artırır və s. Bu baxımdan qərarın qəbulu öz məqsədinə çatıb".

***Ləman***



Vəli Vəliyev

# "The Washington Post" - media, yoxsa siyasi rupor

**Azərbaycan torpaqları işğal altında olarkən dostlardan biri demişdi ki, "yaxşı ki, Ermənistanın torpaqlarını işğal etməmişik, yoxsa günümüzü göy əskiyə çevirərdilər". Söhbət erməniləri işğala ruhlandıran, onlara qahmar çıxan, dünya ölkələrinin tənəsindən qoruyan ABŞ-ın "babalıq" etdiyi Qərb düşərgəsindən gedir. Bəli, torpaqlarımız işğal edilmişdi, beynəlxalq hüquqa qarşı ermənilər tərəfindən böyük sayqısızlıq var idi, amma kimsəni, heç bir dövləti bu faktlar, bu rəzalət qətiyyən narahat etmirdi. Dünyanın məşhur, həşəmətli media qurumları isə susmağa üstünlük verirdilər. Söz azadlığında dəm vurudular, azad mətbuat olduqlarını hər addımda gözümüzə soxmağa çalışırdılar. Və Azərbaycan mətbuatını da onlardan nümunə götürməyə çağırırdılar. Ermənistanın torpaqlarımızda çıxardıqları pəstahaları isə görməzdən gəlirdilər, soruşanda isə "siyasətə qarışmırıq" deyib, söhbətdən yayınırdılar.**

Hələ qəzetdə baş redaktor olduğum vaxtlarda BBC-nin "master klass" təlimlərində iştirak etmək fürsətim olmuşdu. Bizi tərəfsizliyə alışdırırdılar. Yəni media bir materialı hazırlayanda tam bitərəf qalmalı, kimsənin mövqeyinə, fikirlərinə şərik olduğunu büruzə verməməlidir. Qərb mediasının da fəaliyyətində bu kriteriyaların üstün olması barədə soruşanda "bəli" dedilər, amma faktları ortaya qoyanda "təlimçi" bir anlıq duruxdu və sonra özünü toparlayıb mətləbə dəxli olmayan məsələlərdən danışdı. İraqda müharibənin başlanmasında məhz Qərb mətbuatının başlıca rol oynadığını dəlillərlə, faktlarla "teacher"in diqqətinə çatdıranda isə təlimə fasilə verməli oldu...

Bəli, qərblilər belədirlər, ittiham etməyə, dərs verməyə öyrəniblər, dərs almaq, örnək götürmək isə ağıllarının ucundan da keçmir. ABŞ-da işıq üzü görən və üzünə-astarına qədər siyasi qəzet sayılan "The Washington Post" rəsmi olaraq Demokratlar Partiyasının media ruporudur. Doğru eşitdiniz, partiyanın ruporudur, təmsil etdiyi partiyaya alternativ olanların atalarına od vurmaqla, onları aşağılamaqla, siyasi fəaliyyətini ləkələməklə və ümumiyyətlə siyasi mübarizə aparmaqla məşğuldur. Hədəfləri həm də ölkə xaricində də ola bilər. Bu hədəflər sırasında Azərbaycanın da adı çəkilir. Düz 5 dəfə bu qəzetdə Azərbaycana qarşı sifarişli yazılar dərc edilib. Bütün məqalələrin dərcində Amerika Erməniləri Milli Komitəsinin sifarişçi olduğu bəlli olur. Bu baxımdan, "The Washington Post" qəzeti də sponsorlarının tapşırığı ilə müntəzəm əsasda Azərbaycanı hədəfə alır, ölkəmiz haqda mənfi imic formalaşdırır, öz beynəlxalq hüquqla tanınan ərazilərini bərpa etmiş Azərbaycanı militarist ölkə kimi təqdim edir, Qarabağı isə "mübahisəli ərazi" kimi təqdim edirdi. Bu gün isə ABŞ Qarabağı azad edən Prezident İlham Əliyevin müstəqil siyasətini həzm edə bilmir və ona qarşı çirkin kampaniyalar təşkil edir. Bu isə bütün Azərbaycan xalqına və dövlətinə qarşı hörmətsizlikdir...

"The Washington Post" qəzetinin qərəzli, sifarişli məqalələri ilə gündəmə gəlməsi yenilik deyil. ABŞ-ın keçmiş prezidenti, qarşıdan gələn seçkilərdə Respublikaçılar Partiyasından ən şanslı namizəd olan Donald Trampa qarşı mövqeyində də düşmənçilik var. Qəzetin səhifələrində Trampın siyasi və biznes fəaliyyəti tez-tez tənqid edilir, ittihamla dolu məlumatlar dərc edilir.

"The Washington Post" qəzetinin Azərbaycan qarşı apardığı kampaniyalar demək olar ki, müstəqillik əldə etdiyimiz gündən bu günümüzə qədər davam edib. Azərbaycanda keçirilən bütün seçkilərdə qələbə üzünə həsrət qalan müxalif siyasi partiyaların rəhbərləri Amerikaya tərəf boylanıblar, okeanın o tayından ümid gözləyiblər, xalqa yox, "demokratiya bayraqdarları"na üz tutublar. Donosbazlıq ediblər, məğlubiyyətlərini ört-basdır etmək üçün min bir hiylə işlədiblər. Amerikalılar da ələbaxan, ələyatan zümrənin idarə edilməsində çətinliyin yaranmayacağını nəzərə alaraq olunla işbirliyinə gediblər. Prosesdə AXCP sədri Əli Kərimli aktiv iştirak edib, gündəmdə qalmaq üçün istənilən öhdəliyi götürməyə razı olub. Təkcə milli məsələdən başqa, çünki bu adam özünün təmsil olunmadığı hakimiyyətin fəaliyyətini qəbul edə bilməyib. Azərbaycanı ləkələməkdə, dünya birliyində haqlı davamızı gözdən salmaqla özünü qərblilərin yanında "əsl demokrat" imici formalaşdırmağa çalışıb. "The Washington Post" qəzeti də bu fürsəti qaçırmayıb, "tutarlı mənbə" sarıdan heç vaxt qıtlıq yaşamayıb.

Demokratiya carçısı, həqiqəti yazan qəzet gəlin, görək nə vaxtsa obyektivlik nümayiş etdirərək, Azərbaycanın torpaqlarının 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğunu dərc edibmi, münaqişənin tarixi, kökləri bu qəzetdə araşdırılıbmı? Bir milyondan artıq soydaşımızın öz yurd-yuvalarından didərgin salınaraq ağır vəziyyətdə yaşamaları, dünyanı sarsıdan Xocalı soyqırımı haqqında bu qəzetdə bu vaxta qədər bir informasiya dərc olunubmu? Yox, çünki, bu qəzetin siyasətinə ziddir. "The Washington Post" həqiqəti axtarmaqdan çox maraqlara xidmət etməyi özünün əsas meyarı, həyat fəlsəfəsi hesab edir.

# Tariximizi necə yaşadaq?..

**Tarix həyatdır, həyatın içərisində hadisədir. Tarix insanın meydana gəlməsi və inkişafını, müxtəlif xalqların ən qədim zamanlardan dövrümüzədək necə yaşamasını, onların həyatlarında hansı hadisələrin baş verməsini, insan cəmiyyətlərinin həyatı necə və nə üçün dəyişməsini öyrənən elmdir.**

Tarix, həyatdır, deyirik. Bəs bu həyatı necə salnamələşdirməliyik ki, gələcək nəsillərin də ötən həyatlardan və hadisələrdən xəbəri olsun. Tarix bəzən heç də olduğu kimi nəsillərdən-nəsillərə ötürülmür. O, kiminsə istəklərinin də qurbanı olur, təhriflərlə də üz-üzə qalır. Bəs necə etməli ki, yaşanan tarix olduğu kimi yaşadılsın. Axı buna bütün cəmiyyətlərin ehtiyacı var. İnsanlar öz həqiqi keçmişini öyrənmədən, bilmədən hansı tarix, dəyər üzərində həyatını davam etdirə bilər? Bu barədə danışaq.




### Tarix və biz

Zaman ötdükcə tarix dəyişir, öz dövrünə məxsus olanları "çiyinlərində" daşıya-daşıya keçmiş olur. Baxmayaraq ki, biz də həmin zamanlarda tarixin yanında oluruq, onu gündəlik həyatımızda yaşayırıq, lakin həmin yaşananları yazmasaq, arxivləşdirməsək, tarixləşdirməsək, olanlar da bizim kimi dünyasını dəyişib əbədiyyətə qovuşa bilər. Bu isə istənilən bir xalqın yaşadığı tarixi itirməsi ilə nəticələnər. Belə olan halda isə biz itirdiklərimizlə nə xalq, nə də millət ola bilərik. Odur ki, tarixi yaşatmağın bütün vasitələrindən istifadə etməklə buna nail olmalıyıq.








"Tarix" anlayışı üç müxtəlif səviyyədə və mənada istifadə olunur. Birincisi, sosial-tarixi proses-ictimai inkişaf, ikincisi, ictimai-siyasi hadisələrin xronoloji ardıcıllıqla təsviri və nəhayət, üçüncü, bu prosesin insan tərəfindən bütövlüklə dərk olunması. Birinci anlayışa görə tarix sosial-tarixi proses kimi inkişaf edir, yəni irəliləyir. İkinci anlayışa görə təbii ki, tarixi proseslərin hər biri xronoloji ardıcıllıqda yaşanır. Üçüncü anlayış isə ən vacib olanı, yəni insanların bu proseslərin hər birini dərk etməsini ehtiva edir. İnsan tərəfindən keçmiş hadisələrin dərk olunması üçünsə elə bir sistem və baza yaradılmalıdır ki, o, bu prosesi asanlıqla qavraya, öyrənə və gələcək nəsillərə daşıya bilsin. Beləliklə, tarix və biz bir-birimizlə sıx əlaqədə olan iki-maddi və mənəvi varlığıq. Tariximizi bilməriksə, deməli, yoxuq. Eləcə də tarix, biz yoxuqsa, yaşanmasının nə mənası var...

### Tarix arxivlərdə, qəzetlərdə, kitablarda filmlərdə... yaşayır

Tarix o zaman yaşadılır ki, baş verən hadisələr vaxtında yazılır. Baş verən tarixi hadisələri insan zaman-zaman kitablardan öyrənir, kitablar əsasında çəkilmiş filmlər vasitəsilə tanış olur. Kitabların hasil olmasında isə təbii ki, çap mediasının rolu əvəzsizdir. Yazıçı, tədqiqatçı bir hadisəni öyrənmək üçün arxivlərə üz tutur. Lakin arxivlərdə həmin hadisə barədə sadəcə rəsmi sənədləri görə, hadisələrin xronoloji ardıcıllığını əldə edə bilir. Lakin çap mediası hadisələrin həm tarixini, xronologiyasını, həm də onların şərhini, mahiyyətini açıqlayır. Ayrı-ayrı təhlillər, analizlər, münasibət yazıları, müsahibələr hadisə haqqında müfəssəl təəssürat yaradır. Beləliklə, həm arxivlər, həm qəzet redaksiyalarında yaradılan qəzet arxivləri tarixdir. Gələcək araşdırmaçı, tədqiqatçı, tarixçi üçün dəyərli arxiv.

Mən 3 il əvvəl "Naxçıvan blokadası" adlı kitabımla əlaqədar Naxçıvan şəhərində yerləşən dövlət arxivində araşdırma aparırdım. Burada mənə əsasən lazım olan 1990-1993-cü illərə aid xeyli sənəd əldə edə bilsəm də, lakin müfəssəl məlumatı Naxçıvanda dərc olunan "Şərq qapısı" qəzetinin arxivindən əldə edə bildim. Qəzetin səhifələrində elə yazılara rast gəldim ki, həmin yazılar məni blokadanın başladığı illərə, naxçıvanlıların aclıqla, həyati təhlükə ilə üz-üzə qaldıqları illərə apardı. Bu yazılar həmin dövrün ictimai-sosial həyatını elə təsiredici bir tərzdə ifadə edirdi ki, oxuduqca həmin dövrün adamına çevrilir, hadisələr içərisində blokadanın acınacaqlı günlərini yaşayırdım.

Və yaxud da, digər bir misal. İkinci cahan müharibəsini biz nəsil görməmişik. Minlərlə soydaşımızın gedib qayıtmadığı, Vətənimizin sərvətlərinin axıdıldığı, hətta neftimizin alman faşizmi üzərində qələbədə böyük əhəmiyyətə malik olduğu müharibə haqqında bizdə yalnız kitablardan oxumaqla, filmlərə baxmaqla təsəvvür yaranıb. Bu kitablar isə təbii ki, arxivlərdən, qəzet səhifələrindən, şahidlərdən istifadə ilə ərsəyə gəlib, o kitablar isə filmlərin ərsəyə gəlməsinə zəmin yaradıb.

Eləcə də Birinci Vətən müharibəsi. Ermənistanla-Azərbaycan arasında 1989-1994-cü illəri əhatə müharibənin acılarını biz görmüşük, yaşamışıq. Övladlarımızın isə həmin müharibə haqqında müfəssəl məlumat alması təbii ki, bizdən asılıdır. Bizim qəzetlər, yazdığımız kitablar, çəkdiyimiz filmlər, hətta bəstələdiyimiz bir mahnı belə böyük tarix haqqında məlumatdır. Bu məlumatların dərk olunmasıdır. Beyinlərə yazılıb əbədiləşməsidir.

Biz övladlarımıza Birinci Vətən müharibəsi haqqında məlumat verməsəydik, onlar İkinci Vətən müharibəsinin nə olduğunu dərk edərdilərmi? Anlaya bilərdilərmi, düşmən erməni 30 il əvvəl Qarabağı və Şərqi Zəngəzurun müəyyən ərazilərini vəhşicəsinə işğal edib, minlərlə soydaşımızı doğma ev-eşiyindən, əzəli ata-baba yurdundan zorla didərgin salıb? Əlbəttə, anlamazdılar. Anlamadıqları üçün də mübarizəyə qalxmazdılar.

Bax, tarixin öyrənilməsi, yaşadılması, gənc nəslə öyrədilməsi özünü Vətən müharibəsində bariz şəkildə göstərdi. Biz gənclərimizin vətənpərvərliyinin, tariximizi doğru bildiklərinin şahidi olduq. Onların hər biri hər qarış torpağımız uğrunda canından keçməyə hazır idi. Onlar şəhid, qazi oldular, həyatları yarımçıq qaldı, lakin tarixi torpaqlarımızı düşməndən geri ala bildilər. Çünki tariximizi bilirdilər. Bilirdilər ki, Qarabağ və Şərqi Zəngəzur Azərbaycan torpaqlarıdır. Bunların minilliklərə söykənən tarixi var.

### Evdə, bağçada, məktəbdə, hətta nağıllarda...

Tarixi öyrənmək, yaşatmaq o qədər məsuliyyətli məsələdir ki, bunu övladlarımızın ən kiçik yaşlarından başlamaq lazımdır. Onlara olan-keçənləri anlatmaqla, yaddaşlarına həkk etməklə tariximizi öyrətməliyik. Ana-nənələrimiz uşaqlara söylədikləri nağılları tarixin bir hadisəsi üzərində qurmaqla buna nail olmalıdırlar. Hər evdə tarixi hadisələr haqqında teztez söhbət açmaqla, uşaqlarla birgə filmlər izləməklə, kitab oxumaqla tariximizi öyrənməyə başlamalıyıq.

Bağçada, məktəbdə müəllimlər tarixi hadisələrin bir parçasını gündəlik uşaqlara öyrətməlidirlər. Bizdə belə tarixi hadisələr, anlar olduqca çoxdur. Minilliklər boyu şanlı-şərəfli tariximiz, qəhrəmanlarımız, milli mənəvi dəyərlərimiz, adət-ənənələrimiz var. Müharibələr görmüş bir xalq kimi acılı və şanlı tariximiz var. Bunların hər biri gündəlik mövzulara çevrilib uşaq və gənclərimizə məktəbəqədər müəssisələrdən tutmuş universitetlərdə belə gündəlik aşılanmalıdır.

Tarixi hadisələr, müharibələr mövzusunda cizgi, televiziya və bədii filmlərin sayını artırmaqla tariximizin daha dərindən öyrənilməsinə və yadda qalmasına nail ola bilərik. Hələlik bu kimi filmlər ölkəmizdə azdır. Lakin çalışmalıyıq ki, onların sayını çoxaldaq. Xüsusilə İkinci Vətən müharibəsinə aid hələlik sanballı bir filmə tamaşa edə bilməmişik.

Bu müharibənin ayrı-ayrı o qədər mövzuları var ki, onların hər birini bir filmdə açmaq, göstərmək olar. Bu filmlərin çəkilməsi üçün kitablar da var, yazılı mətbuat da var. Və cəmi 3 illik zaman kəsiyində baş verdiyi üçün şahidlər də var. Bir də hər birimiz uzaqdan da olsa, bu savaşın şahidi deyilikmi? Belə filmlərin bu gün çəkilməsi daha canlı, tarixi olar. Nəinki 5-10 il sonra. Odur ki, ssenaristlərimiz, rejissorlarımız, bəstəkarlarımız tarixi yaşatmaq prinsipi ilə qollarını çırmayıb işə başlamalıdırlar.

Bizim övladlarımız gündəlik olaraq evlərimizdə, baxçada, məktəbdə, ali təhsil ocaqlarında tariximizlə, onun yaşadılması ilə bağlı film, mahnı, söhbətlərlə əhatə olunmalıdırlar. Elə etməliyik ki, bütün bunlar onların yaddaşına həkk olunsun.

### Tarix: bəzən olduğu, bəzənsə bizim istədiyimiz kimi...

Əslində tarixi olduğu, baş verdiyi kimi yaşatmaq çox çətindir. Nəzərə alsaq ki, bütün dünyada baş verən hadisələr bəzən olduğu kimi, bəzən isə kimlərinsə istəyi fonunda tarixləşir, belə deməyə əsasımız olur. Elə bunun üçün də tarix üzərində o qədər həssaslıqla işlənməlidir ki, o, olduğu kimi gələcəyə ötürülə bilsin. Tarixə, tarixi hadisələrə bir qədər məsuliyyətsizliklə yanaşmaq, hadisələri olduğu kimi əks etdirməmək zaman-zaman həqiqəti öz əllərimizlə itirməklə nəticələnə bilər. Gözümüzün önündə nankor ermənilərin Azərbaycan tarixini saxtalaşdırdıqlarının dəfələrlə şahidi olmuşuq. Biz əgər tariximizi müfəssəl bilməsəydik, vaxtında baş verən hadisələri yazmasaydıq, arxivləşdirməsəydik, bu həqiqətləri ortaya çıxarıb nəinki erməniyə, bütün dünyaya nümayiş etdirə bilərdikmi? Əlbəttə, yox. Elə buna görə də hər bir vətəndaşımız əlindən nə gəlirsə, etməlidir. Yazmaqla, filmlərə köçürməklə, bəstələməklə, söyləməklə, bir sözlə, yorulmadan tarixi yaşatmalı, öyrənməli, qorumalı və gələcək nəsillər üçün bir salnamə yaratmalıyıq. Başqa heç nə ilə dünəni bu günə, bu günü sabaha daşıya bilmərik.

***Mətanət Məmmədova***

# Kim daha qısqancdır: kişi, yoxsa qadın?



**Maraqlıdır ki, ailəcanlı olan insan "əks-cins" uğrunda mübarizədə ibtidai canlını geridə qoyub. El arasında belə bir məsəl var, "Qısqanırsa, deməк sevir". Görəsən bu, həqiqətən belədirmi? Ümumiyyətlə, münasibətdə kişi, yoxsa qadın daha qısqanc olur? SİA mövzu ilə bağlı araşdırma aparıb.**

## Bu hissin kökündə nə dayanır? Qısqanclıq nədir?

Qısqanclıq insanların böyük əksəriyyətində müşahidə olunan hissdir. Bu, istər ailə, istər romantik, istərsə də dostluq münasibətlərində özünü göstərir və bir çoxları tərəfindən sevgi və qayğının ifadəsi kimi qəbul edilir.

Lakin qısqanclıq həm də sahiblik hissini əks etdirə bilər. Bu mənada, o, həmin şəxslə qalmaq iradəsinin təmsili olmaqdan çıxır və münasibətləri həbs edən və məhv edən zəhərli bir duyğuya çevrilir. Ona görə də, hansı simptomların olduğunu təhlil və ayırd etmək vacibdir.



Çoxları xəbərsizdir, lakin qısqanclığın birdən çox növü var. Bəzi hallarda hətta patoloji hesab edilə bilər və tibbi müalicə tələb olunur.

## Normal qısqanclıq

Normal qısqanclıq deyilən şey sahiblik ideyası ilə əlaqəli olmayandır. Adətən bu hiss insanı itirmək qorxusu və ya hətta çatışmazlıq hissi ilə əlaqədardır.

Əksər hallarda normal qısqanclıq hissi keçirənlər bunu ifadə etməməyə çalışırlar, çünki bunun əsaslı olmadığını və ya olduğunu bilirlər. Qarşınızdakı insanda dəyərinizi bilməli və özünə hörmətinizi artırmalısınız. Nə qədər əyləncəli, yaraşıqlı, ağıllı və daha çox şey olduğunuzu bilsəniz, o insanın niyə sizinlə olmağı seçdiyini başa düşəcəksiniz.

Özünə hörmətiniz üzərində işləmək üçün introspeksiyaya bir az vaxt ayırın. Öz xüsusiyyətlərinizi bilmək üçün özünüzü tanımalısan. Nəyi yaxşı etdiyinizi, nəyi bəyəndiyinizi və nailiyyətlərinizi dərk edin.

## Emosional intellekt

Emosional zəkanın inkişafı qısqanclıq və münasibətlərdəki bir sıra digər vəziyyətlərin öhdəsindən gəlməyə kömək edəcək. Biz teztez vəziyyətlərə məntiqsiz reaksiyalar veririk və sonra peşman oluruq. Lakin tez-tez bu cür hərəkətlər etmək münasibətləri gərginləşdirə bilər. Bunun qarşısını almağın bir yolu emosional zəka üzərində işləməkdir ki, situasiyaları daha çox şüurla müşahidə edə və həmin anlarda necə müsbət hərəkət edəcəyinizi biləsiniz.

## Müsbət fikirlər

Müsbət düşüncələr inkişaf etdirmək qısqanclığa qalib gəlməyin başqa bir yoludur. Mümkün bir xəyanət və ya sizi qısqanclığa vadar edən hər hansı vəziyyətlə bağlı mənfi hislər və düşüncələr bəsləmək vəziyyəti daha da pisləşdirəcək.

Ola bilsin ki, özünüzü bu düşüncələrə qərq edib sonda yaratdığınız hekayəyə inanırsınız. Buna görə də əsassız bir fikrin yarandığını anladığınız zaman onu uzaqlaşdırın və beyninizi müsbət fikirlərlə doldurmağa çalışın..

## Danışmaq

Ən vacib məsləhətlərdən biri: dialoq. Danışmasanız, partnyorunuz niyə qısqandığınızı bilməyəcək. Siz nə hiss etdiyinizi deməli, hər zaman başqalarına hörmətlə yanaşmalısınız.

Sizi narahat edən şeylər haqqında səmimi söhbət edin və hər şeydən əvvəl dinləməyə hazır olun. Qarşı tərəfi dinləmək sizə inamsızlıqlarınızın nə dərəcədə real olduğunu və ya sadəcə təsəvvürünüzün və etibarsızlığınızın bəhrəsi olduğunu başa düşməyə kömək edəcək.

## Qısqanclıq hissi sağlam ola bilərmi?

Qısqanclığın bir neçə növü və əlamətləri var. Onlardan bəziləri insanlar üçün normal, digərləri isə patologiya hesab olunur. Qısqanclıq bəziləri tərəfindən münasibətdə sağlam bir şey hesab olunur.

Ancaq bunu başa düşmək lazımdır ki, qısqanclıqda sağlam sayılan cəhətlər qayğı, sevgi və o insana sahib olmaq istəyidir. Bütün bu hisləri qısqanclıqla əlaqələndirmək lazım deyil.

Qısqanclıq ən yaxşı münasibətlərdə fikir ayrılığına səbəb olan pis hisdir. Daim qısqanclıq hissi özünə inamı aşağı salır, narahatlığa səbəb olur və insanı paranoyak edə bilir. Qısqanc bir insanla münasibətdə yaşamaq da eyni dərəcədə zəhərlidir, çünki bu, insanı məhdudlaşdırır və incidir.

Beləliklə, həmişə qısqanclığa qalib gəlməyə çalışın. Birlikdə yaşadığınız insanla səmimi dialoq qurun və aranızda inam yaratmağa çalışın. Səmimi olmaq və bir-birinizi dinləməklə, həqiqətən sağlam münasibət qura bilərsiniz.



## Romantik münasibətlərdə qısqanclıq

Yaxın münasibətlərdə görülən qısqanclıq duyğusu ən güclü, geniş yayılmış və yorucu duyğulardan biridir. Qısqanclıq münasibətin təhlükəyə girməsi düşüncəsi ilə yaranan duyğudur.

Qısqanclıq daha çox qəzəb, kədər və qorxu duyguları ilə özünü göstərir və münasibətin aşiq olmadan sonra güvənqurma mərhələsində daha sıx olur.

Romantik münasibətlərdə qısqanclıq və sahiblənmə duyğusunun olması normaldır.

Amma münasibətimizə şübhələrlə yanaşır, gərginlik hiss ediriksə bu həyat keyfiyyətimizə mənfi təsir edirsə, həmçinin partnyorumuzda da qorxu və ya aqressiyaya səbəb olacaq həddə sahiblənmə duyğusu yaranırsa bu qısqanclığın təhlükəli duyğuya çevrilməsinə səbəb ola bilər.

Qısqanclıq hər kəsdə olan bir duyğudur.

Ancaq özgüvənimiz aşağı olduqda, özümüzü yetərsiz və dəyərsiz hiss etdikdə, partnyorumuzla aramızda sağlam bağ qura bilmədikdə qısqanclıq düşüncələrimizi və duyğularımızı kontrol etməkdə çətinlik çəkirik.

Belə olan halda partnyorumuzu təcrid edə, ailəsi və yaxın ətrafı ilə kontaktını kəsə, əlavə fəaliyyətlərinə sərhəd qoyub, davamlı xəyanət edir düşüncəsi ilə partnyorumuzu günahlandıra bilərik.

Qısqanclıq münasibəti korlayan və boşanmalara səbəb olan önəmli faktlardan biridir.

Qısqanclıq zamanı psixoloji, cinsi və fiziki şiddət göstərə bilərik. Qısqanclığın səbəb olduğu şiddətlər ölümcül belə ola bilər.

## Bəs, münasibətdə kişi, yoxsa qadın daha qısqanc olur?

Psixoloq Samirə Əhmədli hesab edir ki, "qısqanırsa, deməк sevir" məsəli heç də düzgün sayılmamalıdır və bu, özünü praktikada çox zaman layiqincə doğrultmur: "Fikrimcə, qısqanclıq böyük ehtimalla artıq sözsöhbət, dava-dalaş, bir sözlə neqativ bir hissdir. Qarşısındakını təmiz qəlblə, inam və etibarla sevən insan qısqanmamalıdır. Qısqanan tərəf zəifliyini, çarəsizliyini göstərir. O, daim qorxur ki, məni atarlar, dəyişərlər, məndən imtina edərlər, mən tək qala bilərəm, məndən yaxşısı, layiqlisi peyda ola bilər Mən güclü qısqanclıq hissini insan kompleksləri sırasına da daxil edərdim. Yəni problem qısqanan tərəfin özündədir. Qısqanan şəxs bu hissiylə seçimini, üstəlik öz hiss və duyğularını, deməк elə müəyyən mənada özünü şübhə altına almış olur".

Psixoloqun fikrincə, qadın daha çox hisləri, kişi isə ağılı ilə yaşayır və seçim edir: "Kişilərdə məntiqi düşüncə daha yüksək səviyyədə olur. Qadınlarda isə 6-cı hiss nisbətən güclü inkişaf edir. Məncə, qadınlar hisslərini, o cümlədən qısqanclıqlarını elə də gizlədə bilmirlər. Gizlədə bilənləri isə ağıllı qadın hesab edirəm. Çünki bununla onlar kişilərə öz acizliyini, çarəsizliyini nümayiş etdirmir, hər zaman onların gözündə əlçatmaz, yüksəkdə dayanırlar. Bu zaman kişilərin onlara olan maraqlarının itməsi, onları "dəyişmək" halları da nisbətən azalır."

*Ardı Səh. 14*

# Kim daha qısqancdır: kişi, yoxsa qadın?

Əvvəli Səh.13

Samirə Əhmədli hazırkı bir qisim gənc və yeniyetmələrin sevgi münasibətlərindən də tam razı deyil. Onun fikrincə, belə cütlüklərin əsas vaxtı çox zaman yersiz qısqanclıqlarından doğan problem, fəsad və hadisələ-



rin çözülməsi, həll olunması, yaxud da sadəcə nəql olunmasına sərf olunur.

”Daha çox kimlər qısqanır” sualına isə psixoloq belə cavab verir: ”Ən dəhşətli qısqanclar uşaqlıqda valideynləri tərəfindən elə də sevilməyən, öpülüb-əzizlənməyən, qucağa götürülməyən fərdlərdən çıxır. Yaxud da əksinə, həddindən ziyadə sevilib-əzizlənən, xüsusən 3-4 yaşlarından sonra daim ”əl içi”ndə gəzdirilən, az qala, hər addım və nəfəsi nəzarətdə saxlanılan insanlardan yaranır. Həmçinin uşaqlıqda valideynlərinin boşanmasını yaşayan, qismətinə ögey valideyn yazılmış şəxslərdə də bu hisslər güclü olur.” Psixoloq tövsiyyə edir ki, insanlar ilk öncə özünəinam, özünüqiymətləndirmə kimi hisslərini artırmalıdırlar ki, bu problemlə bu və ya digər hallarda rastlaşmasınlar.

## Kişi qısqanclığının əlamətləri, səbəbləri və onunla mübarizə metodları

Əgər qısqanc insan özünü ələ ala bilirsə bu yaxşıdır, amma bəzən kişi qısqanclığı daha ciddi və xoşagəlməz hal alır. Bu prosesi dayandırmaq çox çətindir, sadəcə kişi qısqanclığının mahiyyətini və əlamətlərini anlamaq lazımdır ki, ona səbəb olan amillər məlum olsun. Biz sizə kişi qısqanclığının bir neçə səbəbini təqdim edirik.

- Özünə inamsızlıq

Özünə inamsızlıq və qadınının daha yaxşı birisini tapa biləcək qorxusu. Bu ən yayılmış səbəblərdən biridir.

- Keçmişin psixoloji travmaları

Belə vəziyyətdə kişilər reallığa diqqət et-





mirlər və onların fikiri yalnız öz daxilinə yönəldilir.

- Hiper mənimsəmə hissi

Qadınına olan başqalarının diqqətini kişi onlara təcavüz kimi qəbul edir. Kişi öz qadının üzərində hakimiyyəti itirməyə qorxur.

## Qadın tərəfindən edilən provokasiya

Siz yoldaşınızı qısqanmağa məcbur edərək onu itirmək riskini reallaşdırırsınız. Kişi qısqanclığı qismən aydın olsa da, qadın qısqanclığı bir qədər daha mürəkkəb olur. Kişi üçün ən qorxunc - fiziki xəyanətdir, lakin qadınlar daha çox mənəvi xəyanətdən qorxurlar. Bəzən başqa qadına olan heyranlıq hissini qəbul etmək daha mürəkkəb olur. Qısqanan kişilər daha çox faktlara önəm verdikləri zaman, qadınlar əsasən, belə məsələdə öz intuisiyasını rəhbər tuturlar. Lakin daha çox kişi qısqanclığı ayrılmalara səbəb olur.

Əgər qısqanclıq xəstəliyə çevrilirsə, bu zaman psixoloqların müdaxiləsi lazımdır (bəzən isə hətta psixiatrların). İlk növbədə kişi öz çatışmazlığını dərk etməli və düzəlməyə çalışmalıdır. Ən əsası öz sevdiyiniz insan ilə xüsusi bir əlaqə tapmaqdır. Onunla açıq və səmimi danışın. Öz şübhələriniz və həyəcanlarınız ilə bölüşün (yalnız ittiham formasında deyil). Mütləq ümumi təmas nöqtələrini tapın, çünki birgə maraqlar insanları daha çox yaxınlaşdırır. Siz inkişaf edib, maraqlı işlə məşğul olduğunuz zaman qısqanclığa və emosiyalara vaxtınız qalmayacaq.

## Qısqanclıq qadının görmə qabiliyyətini zəiflədir

”Kor qısqanclıq” ifadəsi, sən demə, sadəcə, obrazlı şəkildə söylənilmiş sözlər deyilmiş. Alimlər müəyyənləşdiriblər ki, qısqanc olmaq hissi qadınların birbaşa şəkildə görmə qabiliyyətlərinə mənfi təsir edir. ABŞ-ın Delaver İnstitutu tərəfindən aparılan araş-



dırmalar zamanı çox maraqlı nəticələr qeydə alınıb. Müəyyənləşdirilib ki, qısqanc qadınlar o dərəcədə mənfi emosiyalara qapılırlar ki, axtardıqları əşyaları belə tapmaq iqtidarında olmurlar.

Belə ki, laboratoriya şəraitində aparılan təcrübədə yanaşı, lakin ayrı-ayrı kompüterlərin arxasında oturan cütlüklər iştirak ediblər. Qadınların vəzifəsi sürətlə bir-birini dəyişən təbiət təsvirlərinin fonunda ara-sıra yer alan emosiyalara mənfi təsir göstərən kadrları yox etməyə cəhd göstərmək olub. Kişilər isə ekranda cəlbedici təsvirləri seçməli idilər. Bu anda eksperimenti aparan əsas mütəxəssis qadınlara kişilərin fotolardakı qadınların xarici görkəmlərinə qiymət verdiklərini açıqlayıb.

Eksperimentin sonunda isə qadınlar öz sevgililərinin digər qızları qiymətləndirməsini eşitməyin nə dərəcədə ağır olduğunu söyləyiblər. Məlum olub ki, daha çox qısqanclıq nümayiş etdirən qadınlar onlara tapşırılan şəkilləri tapmaqda çətinlik çəkiblər. Qısqanclıq və ”korluq” hissləri isə qadınların öz sevgililərinin digər qızlara qiymət verməsini fikirləşdikləri an üst-üstə düşüb. Mütəxəssislər bildiriblər ki, məhz bu təcrübə sosial münasibətlərlə həqiqətdə qəbul olunanlar arasında sıx əlaqələrin mövcudluğunu sübut edir.

## Qısqanclığın öhdəsindən gəlmək üçün alim məsləhəti

Sevdiyiniz insanla münasibətinizdən qsqanclıq hissini çıxarmaq qərarına gəlsəniz, mütəxəssislərin aşağıdakı tövsiyələrinə əməl edin:

1.Özünüzə etiraf etməlisiniz ki, partnyorunuzu qısqanırsınız. Hər hansı bir mənfi hiss üzərində işləmək üçün ən vacib məqam fərqinə varmağınızdır. Bunu anlayıb qəbul etdikdən sonra onunla mübarizə aparmaq üçün hansı üsullardan istifadə edəcəyinizi düşünə bilərsiniz.

2. Qısqanclığınızın səbəbini müəyyən etməyə çalışın. Bəlkə də partnyorunuz işdə tez-tez ləngiyir və sizə az diqqət yetirir. Bəlkə də qarşı tərəf artıq bir dəfə sizə xəyanət etdiyi üçün indi bu vəziyyətin təkrarlanmasından qorxursunuz. Qısqanclığın əsl səbəbini müəyyən etmək onun kökünü kəsmək üçün daha bir addımdır.

3. Qısqandığınız zaman yaşadığınız hissləri təsbit edin. Bu, narahatlıq, qorxu, paxıllıq, qəzəb və s. ola bilər.

4.Sevdiyiniz insana onu qısqandığınızı etiraf edin.Sadəcə etirafı özünü məhvetmə aktına çevirməyin (”mən pisəm”, ”mən çirkinəm” və s.).

## Qısqanclığın nə olduğunu izah edən aforizmlər

Sevgi qısqanclığa səbəb olur, amma qısqanclıq sevginin ölməsinə səbəb olur. (İsveçli Kristina)

Qısqanc insan çox, amma qısqanc olmayan daha yaxşı sevir. (Molyer)

Bir çimdik qısqanclıq möcüzələr yarada bilər, ikisi qarışıqlıq yarada bilər. (Paolo Krepet)

Qadın nadir hallarda qısqanc olduğumuzu bağışlayır; amma olmamağımızı heç vaxt bağışlamaz. (Paul-Jean Tulet)

Sevgi ölüm qədər güclüdür; qısqanclıq qəbir qədər qəddardır. (William Shakespeare)

Qısqanclıq sevgi, nifrət, xəsislik və qürur qarışığıdır. (Alphonse Karr)

Qısqanclıq həmişə sevgi ilə doğulur, lakin həmişə onunla ölmür. (Fransua de La Roşfuko)

Sevgi qısqanclığa səbəb olur, amma qısqanclıq sevginin ölməsinə səbəb olur. (İsveçli Kristina)

*Ləman Sərraf*

# Qarabağ bitkiləri dərman sənayesinə nə verə bilər?

**Qarabağ bölgəsi yerüstü təbii sərvətlərlə də zəngindir. Regionda bitən 460-dan artıq yabanı və kol bitkilərinin 70-i endemikdir, yəni, dünyanın başqa heç bir yerində təbii mühitdə bitmir. Bu məqaləmizdə Qarabağın təbiət sərvətlərindən danışacağıq.**



## "Qırmızı Kitab"ın qırmızı növləri

Bildiyimiz kimi, Qarabağ özünün təbiəti, landşaft örtüyü, iqlimi, flora və faunası, mədəni bitkilərin zənginliyi ilə həmişə məşhur olub. Erməni vandalizminə məruz qalmadan öncə burada çoxsaylı nadir, o cümlədən "Azərbaycanın Qırmızı kitabı"na daxil edilmiş bitki və heyvan növləri, qoruq və yasaqlıqlar mövcud olub. Buna misal olaraq, Zəngilan rayonu ərazisində, Bəsitçayın dərəsində yerləşən və Avropada yeganə təbii çinar meşəsini, Laçın rayonunun yüksək dağlıq ərazilərində 100-dən artıq bitki növünün qorunduğu Qaragöl Dövlət Təbiət Qoruğunu, qırmızı (qızılı) palıdın mühafizə olunduğu Laçının Hacışamlı meşəsini, Qubadlı və Laçın ərazisində qırmızı palıdın, qoz ağaclarının, vələs, ağcaqayın, yemişan, ardıc və s. bitdiyi Qubadlı Dövlət Təbiət Yasaqlığını və digər əraziləri göstərmək olar.






Qarabağda 110 fəsiləyə və 397 cinsə aid 606 növ dərman bitkisi (onlardan 4 fəsilə, 10 cinsə aid 11 növ şibyələrdir) yayılıb ki, bu bitkilərin 66 növü ofisinal təbabətdə dərman vasitəsi kimi istifadə olunur. Dərman bitkilərinin 19 fəsilə və 28 cinsdən ibarət 35 növü Qafqaz endemi, 32 növü nadir və itmə təhlükəsində olan, "Azərbaycanın Qırmızı kitabı"na salınmış bitkilərdir.

## Tarixdə Qarabağın şəfalı izi

Öz tarixi boyunca Dağlıq Qarabağda toplanan dərman bitkiləri bir çox ölkələrə ixrac olunurdu. Qarabağın səfalı dağlarından toplanmış çiçək və otlara qədim Babilistan, Roma, Yunanıstan və hətta Misir əczaxanalarında rast gəlmək olurdu. Onların arasında dazı, andız, çobanyastığı otları və məşhur xarı bülbül çiçəyi vardı. Misir xəstəxanalarının birində çalışan qədim yunan alimi Erazistrat (e.ə. IV əsr) qədim Azərbaycan tibbinin irsini öyrənmək üçün Midiyanın paytaxtı Haqmadan (müasir Həmədən) şəhərinə gəlib və burada Qarabağdan gətirilmiş dərman bitkilərinin nümunələrini əldə edib Misirə aparıb.

E.ə. I əsrdə Romanın Qafqaz Albaniyası ilə müharibəyə girməsi də məhz Qarabağın zəngin təbii sərvətlərinə yiyələnmək məqsədini güdürdü. Lakin, Romalılar Alban dövləti üzərində qələbə çala bilmədiklərinə görə onunla sülh müqaviləsi imzalamağa üstünlük verdi. Bu sülh müqaviləsində dərman bitkilərinin alış-verişi haqqında da bənd olub. Məşhur tarixçi Strabona görə Roma imperiyası ilə Albaniya arasında bağlanan müqavilədə Albaniya ölkəsindən yığılan bitkilərdən dərmanlar hazırlanmalı və kiçik şüşə qablara doldurularaq Romaya verilməsi barədə öhdəliklər olub. Beləliklə, hələ yeni eranın əvvəlində həmvətənlərimiz Qarabağda yetişən dərman bitkilərini tibbi məqsədlərlə istifadə edirdilər.

Birinci əsrdə yaşamış məşhur Roma alimi Qalen Qafqaz Albaniyasınıdan gətirilmiş otlardan müxtəlif məcunlar, həblər və başqa müalicə vasitələri hazırlayırdı. Beləliklə, Qarabağın tibbi irsi Romada tibb və əczaçılıq elmlərinin inkişafına təsir göstərirdi. VII əsr Alban tarixçisi Musa Qağankatlı özünün "Alban tarixi" kitabında yazır ki, tibb elmində kamilliyə çatan insanlar bu ölkədə xüsusi hörmət sahibləri olmuşdular. O zaman Qarabağda xüsusi əczaxanalar vardı. Orada həm yerli dərman bitkiləri, həm də dünyanın müxtəlif ölkələrindən gətirilmiş dərman bitkiləri satılardı. Peşəkar həkimlər "türkəçarə" adı ilə şöhrət tapmış türk xalq təbabətindən də bəhrələnirdilər.

Türkəçarə müalicəsinin təsvirinə erkən orta əsrlər zamanı Azərbaycanda, əsasən, Aran Qarabağ torpağında formalaşmış "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlmək olar. Bu əsərdə dağ çiçəyindən məlhəm hazırlanması və onunla igidin yarasının müalicə olunması səhnəsi var. Dastana əsasən, Turalın yaralarını sağaltmaq üçün anası Burla Xatunla qırx incəbelli qız dağlara qalxıb şəfalı çiçəklər toplayır, o çiçəkləri ana südü ilə qarışdırıb məlhəm düzəldirlər və Turalın yaralarını sağaldırlar.



## Ürəyə ayrı, diabetə ayrı faydalı...

Qarabağda yayılmış dərman bitkilərinin bioloji aktivlik və müalicəvi xüsusiyyətlərinin də kifayət qədər genişdir, bu bitkilərin 163 növünün diuretik, 157-nin antibakterial, 138-nin yarasağaldıcı, 81-nin büzüşdürücü, 19-nun antivirus xüsusiyyətlərə malikdir. Bu dərman bitkilərinin daha çox növü ürək-damar (81 növ), mədə-bağırsaq (155 növ), böyrək (55 növ), qaraciyər (80 növ), dəri (149 növ), diabet (35 növ) və bir çox digər xəstəliklərin müalicəsində tətbiq edilir.

İşğaldan əvvəl aparılmış tədqiqatlara əsaslanaraq, Qarabağda 2500-ə qədər ali bitki növünün bitdiyini demək olar. Azərbaycan Respublikasının "Qırmızı kitab"ının I nəşrinə daxil edilmiş nadir və nəsli kəsilmək təhlükəsində olan bitkilərin bir çoxu Qarabağdan təsvir edilib. "Qırmızı kitab"ın II nəsrində 8 Qarabağ endemi haqqında məlumat verilib.

"Qırmızı kitab"a daxil edilmiş 11 növ ağac bitkisinə Qarabağın dendroflorasında rast gəlinir ki, bu da ölkə üzrə bütün nadir və nəsli kəsilməkdə olan dendrofloranın 21%-ni, Kiçik Qafqaz üzrə 50%-ni təşkil edir. İşğaldan əvvəl Qarabağda 228794 hektarı meşə ilə örtülü olan 260311 hektar meşə fondu olub və bunun 54328 hektarı ermənilər tərəfindən məhv edilib ki, bu da regionda mövcud olmuş meşə ehtiyatının 24%-dir.

## Qarabağın ağciyəri - Çinar Meşəsi

İşğal dövründə böyük bir xarabalığa çevrilən Qarabağın həm təbii sərvətləri məhv edilib, həm də bərpası mümkünsüz olan misilsiz nümunələri talan edilib. Bu nümunələrdən biri də Zəngilanın dünyaca məşhur qırmızı çinar meşəliyi idi.

Məşhur Çinar Meşəsi də təbii olaraq bütün dünyada marağa səbəb olurdu. Bu çinar meşəsi təkcə Azərbaycanın deyil, bütün Qafqazın flora-faunasının zənginliyində özünəməxsus yer tuturdu. Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada marağa səbəb olub. Zəngilan nadir bioekoloji əlamətinə görə bənzərsizdir, bu səbəbdən onu "Şərq florasının mirvarisi", möhtəşəm gövdəsi və füsunkarlığına görə isə "Cənubun nəhəng ağacı" adlandırırdılar. Bu meşədə yaşı 1500-ə, hündürlüyü 50 metrə, gövdə diametri 4 metrə çatan ağaclar var idi.

Çinar meşəsi çox nadir və füsunkar yaşıllıq mənbəyidir və ölkəmizin əvəzolunmaz sərvəti hesab edilirdi. Zəngilan çinarları dünyada bitən 8 çinar növündən biri idi. XX əsrin əvvəllərində sahəsi 120 hektara yaxın olan bu Çinar meşəsi bütünlüklə Azərbaycana məxsus idi. Lakin 20-ci illərdə Zəngəzur torpaqlarının yarısının Ermənistana verilməsi ilə Bəsitçay vadisindəki çinar meşəsinin bir hissəsi- Xaçın çay və Şixavuz çay vadiləri boyunca yayılan ağacları indiki Ermənistanın Qafan rayonunun Nerkin-Hand, Sav və Şixavuz kəndləri ərazisində qalıb. Beləliklə, ermənilər bu çinar meşəsinin də bir hissəsini öz ərazilərinə qatıblar.

Sonralar akademik Həsən Əliyevin təşəbbüsü ilə nadir təbiət abidəsi olan çinar meşəsini qorumaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyul tarixli qərarına əsasən Zəngilan rayonunun ərazisində 117 hektar sahəni əhatə edən Bəsitçay Dövlət Təbiət Qoruğu yaradıldı.

Zəngilanın çinar meşəsi Avropada ən böyük, dünyada isə Kanadadan sonra 2-ci yeri tutur. Hazırda Kanada dövlətinin bayrağının üzərindəki Şərq çinarı yarpağının təsviri uzun müddətdir ki, bu dövlətin rəmzinə çevrilib. Bununla yanaşı, bir çox müəlliflər öz tədqiqatlarında hətta belə qənaətə gəlirlər ki, Zəngilanın çinar meşəsi- Şərq çinarı meşəsi dünyanın ən böyük çinar meşəliyi olub.

Tədqiqatçı, coğrafiyaşünas Oktay Ələkbərov da öz araşdırmalarında qeyd edir ki, Zəngilanın çinar meşəsi Yer kürəsinin ən böyük çinar meşəsidir və bu meşə massivi sahəsinin böyüklüyünə görə dünyada birincidir. Zəngilanın çinar meşəsi təkcə yerli mütəxəssislərin, coğrafiyaşünas alimlərin deyil, həm də dünya elminin görkəmli tədqiqatçılarının diqqətini cəlb edirdi. Zaman-zaman xarici alimlərin Zəngilan çinarları ilə yerində tanış olmaq üçün meşəyə gəldikləri də məlumdur. Ekspedisiya nümayəndələri Zəngilan çinarları ilə yerində tanış olaraq, onların hündürlüyü, diametri, xüsusiyyətləri, görkəmi haqqında ətraflı məlumat toplayıb və öz yazılarında bunlardan bəhs ediblər.

Qarabağın faunası da çox zəngin olub. Burada yaşayan və nəsli kəsilməkdə olan çoxsaylı növlər Azərbaycan Respublikasının "Qırmızı kitab"ının II nəşrinə daxil edilib. İşğal olunmuş ərazilərdə həşəratlar faunasının 56 növü nadir, endemik və nəsli kəsilmək təhlükəsindədir. Qarabağın daxili su hövzələrində 12 növ balıq yayılıb, onlardan 7-si Beynəlxalq Təbiəti Mühafizə Təşkilatının qırmızı siyahısına da daxil edilib. 1993-cü ilə qədər Qarabağ ərazisində 16 dəstəyə, 57 fəsiləyə daxil olan 288 növ quş qeydə alınıb. Bunlardan 50 növ "Qırmızı kitab"ın II nəşrinə daxil edilib. Qarabağ ərazisində işğala qədər 6 dəstəyə mənsub 64 məməli növü (bəzi müəlliflərə görə 70, digərlərinə görə 61 növ; bunların da 24 növü Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilib) qeydə alınmışdı.

Çox təəssüf ki, Ermənistan işğalı dövründə Qarabağın flora və faunası, məşhur təbiət abidələri də böyük ölçüdə məhv edilib. Məlum olduğu kimi, təbiət qoruqlarının qorunması YUNESKO tərəfindən həyata keçirilir. 1972-ci ildə bu haqda 164 ölkənin dəstəyilə Paris Konvensiyası qəbul edilib. Lakin Ermənistanın təcavüzü nəticəsində digər tarixi və mədəni abidələrimiz təbiət abidələrimiz də düşmən tərəfindən vəhşicəsinə talan edilib. Buna baxmayaraq, beynəlxalq təşkilatlar bu vandalizm və vəhşilik qarşısında susmağa üstünlük verir.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ

SƏS

6 dekabr
2023-cü il

# Bu il qəbul imtahanları nə vaxt baş tutacaq, yeniliklər nə olacaq?



## EKSPERT İZAH ETDİ



**"2024-cü ildə ali təhsil müəssisələrinə qəbul imtahanları 2023-cü ildə olduğu formatda baş tutacaq. Belə ki, imtahanlar iki mərhələdən ibarətdir. Birinci mərhələ üçün buraxılış imtahanları, həm də qəbul imtahanlarının birinci mərhələsi hesab edilir. Burada imtahan iştirakçıları tədris dili Azərbaycan bölməsinin şagirdləri Azərbaycan dilində, rus bölməsinin şagirdləri rus dilində, həmçinin xarici dil və riyaziyyatdan imtahan verirlər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.**

Kamran Əsədov sözlərinə belə davam edib: "Burada abituriyentlərin maksimum toplayacaqları bal 300 baldır. Bu imtahanın birinci mərhələsi bir dəfə keçirilir. 2024-cü ilin mart ayında isə bölgələr üzrə keçiriləcək. Burada abituriyentlər bloklar, ixtisas qrupları üzrə imtahan verirlər. Seçdikləri 4 ixtisasdan birini seçirlər. Onlar iki dəfə bu imtahanda iştirak edə bilirlər. 11-ci sinfin şagirdləri, həmçinin imtiyazlılar üçün bu imtahan ödənişsiz olur. Digər şəxslər isə müvafiq olaraq Tarif Şurası tərəfindən təsdiqlənmiş ödəniş müqabilində imtahanlarda iştirak edirlər.

İmtahanlar ixtisas qrupları üzrə may ayında keçiriləcək. İkinci dəfə hazırlaşmaları üçün abituriyentlərə müəyyən qədər vaxt verilir. Növbəti imtahan isə iyun ayının sonu, iyul ayında təşkil ediləcək. Abituriyentlər blok imtahanlarının hansında yüksək nəticə toplayarlarsa, həmin imtahan nəticəsindən ali məktəbə ixtisas seçimi zamanı onlara lazım olur. Bu il ali təhsil müəssisələrinə, yeni 2024-cü ildə keçiriləcək imtahanlardan sonra plan yerləri artırılacaq. Əgər 2023-cü ildə ali təhsil müəssisələrinin qəbul plan yeri 55 800 idisə, 2024-cü ildə bu rəqəm 60 000-dən çox olacaq. Həmçinin, 2024-cü ildə nəşr ediləcək abituriyent jurnalında tələbələrimiz yeni universitet adı görəcəklər. Bu Qarabağ Universitetidir. 1000-ə yaxın qəbul olan yeri 1,2,3-cü ixtisas qrupları üzrə Qarabağ Universitetinə ayrılacaq. Burada tələbələr ixtisas seçimi edə biləcəklər.

Ümumilikdə Dövlət İmtahan Mərkəzi öz portalında qəbul imtahanları üzrə proqram nəşr edib. DİM-in portalında bunu izləmək mümkündür. Abituriyentlərin topladıqları balı ümumi müsabiqə şərtini ödəyirsə, onlar ixtisas seçimi edəcəklər. 2024-cü ilin mart ayından etibarən bu il 11-ci sinifdə oxuyan şagirdlər, həmçinin əvvəlki illərin məzunları imtahanlara cəlb olunacaqlar. Onlar artıq 2024-cü ilin aprelində buraxılış fənlərinə, may ayından isə bloklarla bağlı ixtisas qrupları üzrə imtahanlara cəlb olunacaqlar.

Magistratura pilləsinə qəbul imtahanları isə iki dəfə keçiriləcək. Biri fevral ayında, digəri may ayında olacaq. Buraya qəbul olmaq istəyənlər müvafiq imtahanlarda iştirak etməlidirlər".

*Ayşən*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Toylara pul necə salınmalıdır?

**"Son günlər sosial şəbəkədə toylara nəmər yazdırmağın e-manat vasitəsilə həyata keçiriləcəyi ilə bağlı görüntülər yayılıb. Bu görüntüləri mən də izlədim. Belə bir qaydanın tətbiq olunması əslində pis olmaz. Bunun bir neçə aspektdən müsbət təsiri olar". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Fatimə Hacıbəyli deyib.**




O, sözlərinə belə davam edib: "İlk olaraq toy sahibi dövlətə vergi ödəyər. Digər tərəfdən toy sahibi nəmərin restoranda e-manat vasitəsilə ödəniləcəyini düşündüyü üçün şadlıq evlərində toy etməkdən çəkinəcəklər. Bu zaman adət-ənənələrimizin sıradan çıxmasının az da olsa qarşısı alınar. Beləliklə, insanlar palatka toyuna üstünlük verəcək. Təbii ki, palatka toyunda da nəmər əvvəlki qaydada yazılacaq. Belə olan halda insanlar şadlıq evlərində xeyir iş etməkdən çəkinəcək. Vəziyyətin bu həddə çatacağını görən şadlıq evləri də məcbur olub qiymətini endirməli olacaq".

# İlham Zəkiyev gümüş medal qazandı



Yaponiyanın paytaxtı Tokioda paracüdo üzrə Qran-pri keçirilir. Təcrübəli Azərbaycan paracüdoçusu İlham Zəkiyev (+90 kq) yarışda gümüş mükafata yiyələnib. İ.Zəkiyev J1 kateqoriyasında yalnız final görüşündə rəqiblərinə məğlub olub.

Qeyd edək ki, ötən gün Vüqar Şirinli (60 kq) və Şəhanə Hacıyeva (48 kq) ikinci, Namiq Abaslı (73 kq) isə üçüncü yeri tutublar.

## ELAN

Yeni Azərbaycan Partiyasının Qobustan rayon təşkilatı tərəfindən Haxıyev Vüqar Təbiyyət oğlunun adına verilmiş 670276 saylı üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000